www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 oktyabr 2014-cü il Çərşənbə № 266 (5975) Qiyməti 40 qəpik

Xəbər

## “Rusiya Ebola virusundan bioloji silah yaratmaq istəyir”

yazısı səh.10-da

Gündəm

### Parlamentdə Kəlbəcər girovları ilə bağlı şok təşəbbüs



İqbal Ağazadə girovlara vəkillik üçün Xankəndinə getmək istədiyini bəyan etdi; Hacı Qalib isə MM-in iclasında bələdiyyə seçkiləri ilə bağlı ilginc sirr açdı

yazısı səh.12-də

### Müxalifət bələdiyyə seçkilərində efir hüququndan məhrum ola bilər

yazısı səh.4-də

### Dilqəm Əsgərovun oğlu və sabiq nazir girovlardan danışdılar

yazısı səh.3-də

### Azay Quliyev bankları QHT-lərə qarşı qanunsuzluqda günahlandırdı

yazısı səh.2-də

### “Yeni Müsavat”ın müxbiri bacısının başını kəsən qızın ata evindən yazır...

yazısı səh.15-də

### Müsavat Məclisinin bəyanatı gərginliyi daha da artırdı

yazısı səh.6-da

### Özünü Zakir Qaralovun kirvəsi kimi təqdim edən şəxs tutuldu

yazısı səh.2-də

### “Khazar Islands”ın İstanbulda uğurlu təqdimatı olub

yazısı səh.4-də

### Paris danışıqlarının yekunlarına dair yeni detallar

yazısı səh.9-da

### Siyasətçilərimiz tənqidi niyə sevmir...

yazısı səh.8-də

### “Azərsu”nun viran qoyduğu Ceyranbatan

yazısı səh.13-də

*Vidadi İsgəndərli:*

### “Bu harınlamış məmurlar bilsinlər ki...”

yazısı səh.10-da

## Şeyx ehsan qadağasını sındırdı

# ALLAHŞÜKÜR PAŞAZADƏNİN KAMAL ABDULLA ÜZƏRİNDƏ GİZLİ QƏLƏBƏSİ

QMİ sədri hökumətin ehsan məclislərini yasaqlayan qərarını faktiki olaraq dayandırıb, hakimiyyət daxilində Paşazadəyə hücum əks təsir göstərə bilər; Şeyxin həddən artıq sıxışdırılması onun İranla yaxınlaşmasına səbəb ola bilər...



yazısı səh.7-də

## “Total” prezidentinin ölümündə 50 milyardlıq gizli sövdələşmə izi

Moskvanın “Vunukovo” aeroportunda dünyanı heyrətləndirən müəmmalı qəza ilə bağlı yeni faktlar üzə çıxıb; olaydakı sirr pərdəsi qatılaşır

yazısı səh.5-də



### Putində xərçəng tapıldı

yazısı səh.2-də



### Elton Məmmədovun obyekti Bakının girişini iflic edib

yazısı səh.15-də



### İlham Əliyev Leyla Yunusun taleyi ilə maraqlanacağını deyib

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014



**Müsavat Partiyasının başqanı Arif Hacılı partiya üzvü Balabəy Əliyevi 50 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Balabəy Əliyev!**

**Sizi 50 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.**

**Siz 19.01.2000-ci ildə Müsavat Partiyası üzvlüyünə daxil olaraq partiyanın tapşırıq və qərarlarının icrasında, müsavat ideologiyasının təbliğində, sıralarımızın artırılması və fəaliyyətinin genişləndirilməsində fəallıq göstərirsiniz. Partiyanın Sumqayıt təşkilatında humanitar və maliyyə məsələləri üzrə katib vəzifələrini yüksək məsuliyyətlə icra etmiş, sərbəst şura üzvü kimi təşkilatın idarə olunmasında bütün bacarıq və gücünüzü sərf etmisiniz. Partiyanın bütün kütləvi tədbirlərinin, mitinq və piketlərin mütəmadi iştirakçısısınız. Partiyanın iştirak etdiyi bütün seçkilərdə məntəqə üzvü, müşahidəçi və məşvərətçi olaraq seçki saxtakarlıqlarının qarşısının alınmasında mübarizlik göstərmisiniz. 2003-cü il seçkiləri və seçkidən sonrakı proseslərdə üzləşdiyiniz repressiyalar zamanı nümayiş etdirdiyiniz cəsarət və əqidəyə sədaqətiniz xüsusilə təqdirəlayiqdir. Bu proseslər zamanı polis zorakılıqları ilə üzləşsəniz də rejimin təqib və təzyiqləri Sizi haqq yolunuzdan sapdıra bilməmişdir. Siz bu gün də şura üzvü olaraq partiyadaşlarımızla çiyin-çiyinə azad, ədalətli, demokratik və hüquqi cəmiyyət quruculuğu uğrunda mübarizəmizi davam etdirirsiniz. Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz və təvazökarlığınız partiyadaşlarımız və ictimaiyyət arasında Sizə böyük nüfüz qazandırmışdır. Əminəm ki, övladlarınız hər zaman Sizin kimi əqidəli bir müsavatçının övladları olmaları ilə qürur duyacaq və iftixar hissi keçirəcəklər.**

**Hörmətli Balabəy bəy!**

**Sizi bir daha yubileyinizlə əlaqədar ürəkdən təbrik edir, apardığımız bu müqəddəs mübarizədə uğurlar arzulayıram".**

## Azay Quliyev bankları QHT-lərə qarşı qanunsuzluqda günahlandırdı

**Milli Məclisin deputatı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev parlamentin 28 oktyabr iclasında bankları tənqid edib.**

"Media forum" saytının məlumatına görə, deputat deyib ki, bəzi banklar öz müştəriləri arasında ciddi fərq qoyur, QHT-lərdən ağlasığmaz dərəcədə yüksək xidmət haqqı tələb edirlər: "Əgər hansısa xidmət üçün digər müştərilərdən 1 manat 50 qəpik tələb olunursa, QHT-lərdən 100 manat, bəzən isə 1000 manat xidmət haqqı tələb edirlər. Bu, açıq-aşkar qanunsuzluqdur və məsələyə yüksək səviyyədə münasibət bildirilməlidir".

## Özünü Zakir Qaralovun kirvəsi kimi təqdim edən şəxs tutuldu

**Baş prokuror Zakir Qaralovun adından istifadə edərək özünü onun "kirvəsi" kimi qələmə verib, dələduzluq edənlər bir neçə gün öncə həbs olunublar. Bu barədə arqument.az-a Yasamal Rayon Prokurorluğundakı mənbə məlumat verib.**

Xatırladaq ki, bir müddət öncə özünü Zakir Qaralovun "kirvəsi" kimi təqdim edən Elşad Maqsud oğlu Atakişiyev və onun dostu Rövşən Ziyafət oğlu Axundov vətəndaş Səadət Məmişovanı aldadaraq həyat yoldaşını həbsdən azad etmək adı ilə ondan 30 min manat pul alıblar və geri qaytarmayıblar.

Onu da qeyd edək ki, bu ilin iyun ayında Masallı rayonunun Ərkivan kəndində anadan olmuş, hazırda Yasamal rayonu, Şərifzadə küçəsi 12, aspirantların yataqxanası, bina 53, 5-ci mərtəbə, otaq 53 ünvanda yaşayan Məmişova Səadət Baba qızı daxili İşlər naziri Ramil Usubov və baş prokuror Zakir Qaralova müraciət edib.

Şikayətçi bir müddət öncə bildirmişdi ki, onu aldadaraq külli miqdarda pul alan dələduzlarla bağlı heç bir tədbir görülmür: "Həyat yoldaşım Namiq Məmişov həbs olunub. Ona 2012-ci ildə Binəqədi məhkəməsi tərəfindən 4 il iş kəsilib. İlyarımdır həbsxanada yatır. Mən məhkəmənin qarşısında olarkən özünü baş prokuror Zakir Qaralovun "kirvəsi" kimi təqdim edən Elşad Maqsud oğlu Atakişiyev və onun dostu Rövşən Ziyafət oğlu Axundov mənə ərimi azad edəcəklərini bildirdilər. Birinci dəfə məndən 8 min manat pul aldılar. Sonra 16 min manat istədilər. Mən ehtiyat elədiyim üçün 12 saylı notarius vasitəsilə onlara 16 min manat pul verdim. Daha sonra 4 min manat istədilər. Axırda qızıl qolbağımı və qızımın qulağındakı sırğaları aldılar. Mən bütün pulları borca götürmüşəm. Elşad hər dəfə mənə deyirdi ki, narahat olma, baş prokurorla kirvəyəmb yaxın günlərdə ərini azad edəcək. Axırda məlum oldu ki, hər ikisi dələduz imiş. Sonra borc sahibləri pullarını istəməyə başladılar. Mən Elşada və Rövşənə yalvardım ki, pulları qaytarın, yoxsa özümü öldürəcəm. Ancaq onlar heç veclərinə də almadılar. Sonda borc aldığım şəxslər pulu istəyəndə özümü zəhərləyib öldürmək istədim. Məni toksikologiya xəstəxanasına apardılar. Hazırda xəstəyəm. Yasamal RPİ-ə müraciət eləmişəm. Yasamal Rayon Prokurorluğu da işlə məşğul olur. Xahiş edirəm mənə və 2 övladıma yazığınız gəlsin. Mənə kömək edin. Yoxsa özümə qəsd edib öldürəcəm".

Bir müddət öncə - məsələ mediada işqlandırılandan sonra Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov dələduzlara cinayət işinin açıldığını bildirmişdi. Onun sözlərinə görə, vətəndaş Səadət Məmişovanın müraciəti əsasında toplanmış material əsasında Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsində 12 may 2014-cü il tarixdə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanıb, istintaq aparılır, bu barədə müraciət müəllifinə rəsmi məlumat verilib.

Hazırda isə özünü Baş Prokurorun "kirvəsi" kimi təqdim edərək dələduzluq edən şəxslər həbs olunublar.

## Ramiz Mehdiyev icra başçılarını mükafatlandırdı

**Prezident İlham Əliyevin tapşırığına əsasən şəhər, rayon icra hakimiyyəti başçılarının ictimai-siyasi və humanitar məsələlər üzrə müavinlərinin oktyabrın 28-də Prezident yanında Dövlət İdarəçilik Akademiyasında seminar-müşavirəsi işə başlayıb.**



AzərTAc xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Fəxri Xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi dərin ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev geniş məruzə ilə çıxış edərək bu seminar-müşavirənin ölkəmizdə idarəçilik sisteminin təkmilləşdirilməsinə və humanitar sahədə dövlət siyasətinin daha dinamik həyata keçirilməsi prosesinə layiqli töhfə verəcəyini bildirib.

R.Mehdiyev prezident İlham Əliyevin sərəncamlarına əsasən dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə təltif olunmuş icra hakimiyyəti başçılarının bir qrupuna "Şöhrət" və "3-cü dərəcəli Vətənə xidmətə görə" ordenlərini təqdim edib.

Daha sonra seminar-müşavirədə Prezident Administrasiyası humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə və təhsil naziri Mikayıl Cabbarov çıxış ediblər.

Seminar-müşavirə oktyabrın 29-30-da öz işini davam etdirəcək.



## AXCP üzləri partiyadan kütləvi istefa verdilər

**AXCP-nin Sumqayıt şəhər şöbəsinin 52 üzvü partiyadan istefa haqqında bəyanat imzalayıb.**

APA-ya göndərilən bəyanatda bildirilir ki, üzvlərin istefasına səbəb şöbənin keçmiş sədri Kəmaləddin Rəhimova qarşı aparılan kampaniyadır. Qeyd olunur ki, şöbəyə İsa Qurbanovun sədr seçilməsindən sonra yeni sədrlə sabiq sədr K. Rəhimov arasında narazılıq yaranıb.

Bəyanatda şöbənin daha əvvəlki sədri Mahir Qulubəyli daxilində qarşıdurma yaratmaqda ittiham olunub: "Maddi maraqlarla bəzi gənclər Kəmaləddin Rəhimova qarşı şərəfsizcəsinə şayiələr yaydılar. Savadlı insanlar sıxışdırıldı. Bütün bunlara etiraz olaraq, AXCP rəhbərliyinə nizamnamə pozuntuları və qruplaşmalar barədə məlumat verilsə də, araşdırma aparmaq əvəzinə "süni" konfrans keçirildi, hakimiyyətin "yaxın dostu" İsa Qurbanov bir həftə ərzində AXCP-yə üzv qəbul edildi və şəhər şöbəsinə sədr seçildi. Əlbəttə ki, bu hadisələr zamanı baş verənləri hələlik açıqlamaq istəmirik. Son bir ildə isə 5-6 nəfər savadsızlıqları ilə şəhərdə ad qazanmış "lider cəbhəçi" insanlar artıq bizş bu qərarı verməyə vadar etdi. Təəssüflə qeyd edirik ki, son günlər baş verənlərlə bağlı AXCP rəhbərliyinə məlumat verilsə də, bunlara dur deyən olmadı. Ona görə də biz aşağıda qeyd olunan AXCP üzvləri, bu təşkilatda üzv qalmağı özümüzə utanc görərək, istefa verdiyimizi bəyan edirik".

**AXCP sədrinin müavini Fuad Qəhrəmanlı isə APA-ya açıqlamasında K. Rəhimovun partiya ilə əlaqəsini kəsdiyini deyib:** "O, uzun müddətdir ki, AXCP ilə əlaqəsini kəsib. Onun iddiaları tamamilə əsassızdır. Ola bilsin ki, hansısa təsir vasitəsilə öz gedişini ajiotaj kimi təqdim edir. Onun partiyada heç bir statusu yox idi. Onunla birlikdə partiyanı heç kim tərk etməyib".



## Putində xərçəng tapıldı

**Rusiya prezidenti Vladimir Putində mədəaltı vəzin xərçəng xəstəliyi aşkar edilib. AzNews.az xəbər verir ki, bu haqda ABŞ-ın məşhur "New York Post" jurnalı yazıb. Məlumatda deyilir ki, Rusiya lideri artıq 3 ildir ki, bu xəstəlikdən əziyyət çəkir.**

Onun tez bir zamanda Ukraynaya daxil olmağa çalışmasının da səbəbi xəstəliyi ilə əlaqələndirilir. İddiaya görə, Putin istəyir ki, özündən sonra böyük Rusiyanın ənənələrini saxlasın və dövlət sərhədlərini genişləndirsin.

Jurnalın müxbiri Riçard Conson bildirib ki, o, bu addımı ilə Stalinə bənzəməyə çalışıb.

Jurnal vurğulayıb ki, Rusiya lideri əvvəllər "KQB" agenti olan alman həkiminin yanında müalicə olunur.

"Həkim ona müxtəlif proseduralar həyata keçirir. Xəstəliyin simptomları onun sifətində aydınca hiss olunur. 84 yaşlı həkim artıq Rusiyaya gedib-gəlməkdən yorulub. Çünki hər dəfə Putinin təhlükəsizlik xidmətinin əməkdaşları onunla pis davranırlar", - deyə Conson əlavə edib.

Almaniyanın Bild jurnalı isə vurğulayıb ki, bu xəstəliyə tutulanların yalnız 8 faizi sağ qalmağı bacarır, digər hallarda isə belə pasiyentlər ölürlər.

Polşanın "Fakt" qəzeti də Putinin bu xəstəliyə tutulması faktından yazıb və bildirib ki, Putinin özünün aqressiv aparması məhz xəstəliyi ilə əlaqədardır.

## "AAAF Park" 2 azyaşlı uşağı olan ailəni küçədə qoyub

**Son zamanlar "AAAF Park" yaşayış kompleksi ilə bağlı şikayət xarakterli məlumatlar səngimək bilmir. Məlumatların əksəriyyəti şirkət rəhbərliyinin vətəndaşları aldatması və bu kimi xarakter daşıyır.**

"AAAF Park"ın növbəti "qurban"ı aktual.az-a başına gətirilənlərdən danışıb. Vətəndaş Elmin Şirinov əməkdaşımızla söhbəti zamanı bildirib ki, "AAAF Park" 6 aydır onu aldadır:

"Bu ilin, yəni 2014-cü il fevral ayının 2-də "AAAF Park" yaşayış kompleksinin VİP məhəlləsində yerləşən 9-cu binada mənzil üçün 35 000 AZN ilkin ödəniş etmişəm. Şirkətin kampaniyasına əsasən, qalan məbləğ 3 il ərzində ayda 278 AZN ödəmək şərti ilə razılaşdırılıb.

İndiyə qədər aylıq ödənişi vaxtında etmişəm. Mənə bildirdilər ki, bina bu ilin may ayında, ən geci isə iyun ayında təhvil veriləcək. Artıq 6 aydır məni aldadırlar. Hazırda yoldaşım və iki azyaşlı övladımla kirayədə qalıram. Evin təmiri üçün saxladığm pulu da şirkətin məni aldatması səbəbindən kirayələrə xərcləmişəm. Aldığım maaşla isə ailəmi dolandırmağa çalışmışam.

Dəfələrlə "AAAF Park"a müraciət etmişəm, hər dəfə" bu gün", "sabah"- deyib məni aldadıblar. Deyirlər ki, Fövqəladə Hallar Nazirliyi binanın işini dayandırıb. Bizlik heç bir şey yoxdur. Mənim müqaviləm isə "AAAF Park"ladır, FHN-lə yox. Qalmışam çıxılmaz vəziyyətdə".

Məsələ ilə bağlı "AAAF Park"-la əlaqə saxlasaq da, zənglərimizə cavab verən olmadı. Qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

Mövzuya yenidən qayıdacağıq...

## "Azərbaycan ilk 30-luqdadır"

**"Bakıda Gənclər siyasəti üzrə I Qlobal Forumun keçirilməsi böyük əhəmiyyət kəsb edir". APA xəbər verir ki, bunu Prezident Administrasiyasının (PA) ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib. Ə. Həsənov bildirib ki, tədbirdə dünyanın müxtəlif ölkələrindən gənclər, gənclər təşkilatları, bu sahədə siyasəti həyata keçirən dövlət qurumlarının rəhbərləri, akademik dairələr, QHT-lər iştirak edir:**

"Forumda dünya və Azərbaycan gənclərinin problemləri müzakirə olunacaq, yekun sənəd qəbul ediləcək. Tədbirin Bakıda keçirilməsi 20 ildə Azərbaycanda reallaşdırılan davamlı və səmərəli gənclər siyasətinə verilən qiymətdir. Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş gənclər siyasəti bu gün də davam etdirilir. Gənclər siyasətinin həyata keçirilməsində dövlət strukturları ilə yanaşı gənclərin özləri də yaxından iştirak edirlər".

**PA rəsmisi xatırladıb ki, Azərbaycan dünyanın 200-dən artıq dövləti sırasında əhalisinin sayına və ərazisinə görə sonuncu 50 dövlətdən biridir:** "Lakin ölkəmiz yürütdüyü siyasətə, inkişafına, gənclərə, ümumiyyətlə, insanlara yaratdığı şəraitə, dünya dövlətləri siyahısındakı iqtisadi, siyasi, sosial inkişaf reytinqlərinə görə ilk 30 dövlət arasındadır. Bu siyasət isə diqqətdən kənarda qala bilməzdi. Bugünkü forumun keçirilməsinə təsir göstərən əsas amillərdən biri də Azərbaycanda uğurlu siyasət aparılmasıdır. Hesab edirəm ki, forum Azərbaycan gənclərinin dünya gəncləri sırasına daha sıx inteqrasiyasına dəstək verəcək, gənclər siyasətinin inkişaf etdirilməsində mühüm amilə çevriləcək".

Forumdan gözlənilənlərə gəlincə, Ə.Həsənov qeyd edib ki, Azərbaycan gənclərinin də iştirakı ilə müasir gəncliyi düşündürən bütün sahələr, o cümlədən gənclərin potensialından, imkanlarından istifadə üzrə dövlətlərin siyasəti üçün vahid tövsiyələr hazırlanacaq. Bu tövsiyələr forumda iştirak edən dövlət qurumları tərəfindən öz ölkələrində də istifadə olunacaq. Həmçinin tədbirdə BMT, AŞPA, UNESKO və digər beynəlxalq təşkilatların iştirakını nəzərə alsaq, qlobal gənclər siyasətinin formalaşmasına da təsir göstərəcəyini demək olar.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Xəstə siyasi məhbuslar daha tez azadlığa çıxa bilər"

**Siyasi məhbusların azadlığa çıxacağı ilə bağlı ümidlər artmaqdadır. Bir tərəfdən, Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın təklifi ilə İşçi Qrupun yenidən formalaşması, digər tərəfdən, Parisdə Fransa və Azərbaycan prezidentlərinin təkbətək görüşündə Fransua Ollandın siyasi məhbus probleminə toxunması və Azərbaycanlı həmkarından hüquq müdafiəçisi L.Yunusun vəziyyəti ilə maraqlanmağı istəməsi məsələdə hansısa yumşalmaların ola biləcəyini ehtimal etməyə əsas verir.**

## Prezidentin Leyla Yunusun işi ilə maraqlanacağı ilə bağlı vədi siyasi dustaqların buraxılacağına olan ümidləri artırıb...

Qeyd edək ki, "France press"in məlumatına görə, Fransa prezidenti ilə görüşdə Azərbaycan prezidenti L.Yunusun taleyi ilə maraqlanacağını deyib. Bəs İnsan Haqları üzrə İşçi Qrupun siyahısında növbəti mərhələdə azadlığa çıxması nəzərdə tutulan siyasi məhbuslar kimlər ola bilər? Prezident Əliyevin Leyla Yunusun vəziyyəti ilə maraqlanması həbsdəki hüquq müdafiəçilərinin azadlığa çıxacağı ehtimalından danışmağa əsas verirmi?

**"Yeni Müsavat"a açıqlamasında İşçi Qrupun üzvü olan hüquq müdafiəçisi Səidə Qocamanlı bildirdi ki, Leyla Yunusun istintaq işi davam etdiyindən, bu haqda yalnız ölkə başçısı qərar verə bilər:** "Mən çətinlik çəkirəm suala cavab verməyə. Bu, iki prezident arasında müzakirə olunubsa, bu haqda qərar vermək səlahiyyəti də cənab prezidentdədir. Çünki Leyla Yunus istintaq altındadır. Onun saxlanma şəraiti və ya səhhəti ilə bağlı hər hansı qərarı yalnız ölkə başçısı verə bilər. Buna görə də konkret söz demək çətindir".

**İşçi Qrupun fəaliyyətinə gəlincə, Qocamanlı hazırda qurumun digər siyasi məhbusların azadlığa çıxması istiqamətində də iş apardığını söylədi:** "Artıq ilk iclas keçirilib, ikinci iclasa hazırlaşırıq. Təbii ki, bu deyilənlərin prosesə təsiri olacaq, biz buna ümidi olmasaydıq, İşçi Qrup yaranmazdı. Bu məsələdə dövlət də maraqlıdır, İşçi Qrupu və Avropa Şurası da. Avropa Şurasının nümayəndələri də İşçi Qrupunun iclaslarında mütəmadi olaraq iştirak edəcəklər. Ümid edirik



ki, hansısa irəliləyişlər olacaq. Artıq məhbusların saxlanma şəraiti və digər məsələlər həll olunub. Düşünürəm ki, məhbusların azadlığa buraxılması üçün də işçi qrupu kifayət qədər işlər görəcək. İkinci iclasımızdan sonra biz bu məsələlərlə bağlı daha ətraflı açıqlama verəcəyik".

**NİDA vətəndaş Hərəkatının həbsdə olan üzvlərinə gəlincə, Səidə Qocamanlı bildirdi ki, onlar diqqət mərkəzindədir:** "Onların azadlığa çıxması çox vacibdir. Çünki gəncdirlər, cəmiyyət üçün yetərincə yaxşı işlər görə bilərlər. Onların məsələsi gündəmdən düşməyəcək və çalışacağıq ki, azadlığa buraxılsınlar".

**İşçi Qrupunun digər üzvü Arzu Abdulla da "Yeni Müsavat"a açıqlamasında irəliləyişlərin ola biləcəyini qeyd etdi:** "Əgər ölkə başçısı və onun ətrafı bu qurumun yaradılması təklifini qəbul etdisə və dəstəklədisə, bu, artıq o deməkdir ki, irəliləyişlər olacaq. Biz İşçi Qrupunun qarşıdakı iclasında ilk olaraq xəstə siyasi məhbusların işlərinə baxacağıq. Onların adlarını çəkə bilmərəm. Ancaq müzakirələr zamanı qərara gəlmişik ki, belə məhbusların məsələsini önə çəkək".

**Xatırladaq ki, hazırda siyasi məhbuslardan səhhətində ən çox problemlər olan hüquq müdafiəçiləri Leyla Yunus, onun həyat yoldaşı Arif Yunus və İntiqam Əliyevdir. Onlardan Leyla Yunus İşçi Qrupunu boykot etdiyini bildirib. Buna münasibət bildirən Arzu Abdulla dedi ki, bu, içəridə məlumat qıtlığının olmasından irəli gəlir:** "Onlara bəlkə də yanlış məlumatlar çatdırılır. Boykot çağırışını Leyla Yunus etmişdi. İntiqam Əliyev isə belə bir addım atmayıb, onun adından istifadə etmək və bəyanat səsləndirmək düzgün deyil. Ancaq hətta belə bir bəyanat olsa belə, biz bunu nəzərə almadan onların hər birinin azad olunması üçün çalışacağıq".

Növbəti mərhələdə kimlərin azadlığa çıxması müzakirə olunur sualına cavabında Arzu Abdulla bildirdi ki, məsələ növbəti iclaslarda müzakirə olunacaq.

❑ **Nərgiz LİFTİYEVA**

# Dilqəm Əsgərovun oğlu və sabiq nazir girovlardan danışdılar



## Kürdoğlu Əsgərov: "Atam çox dəyişib, arıqlayıb, özünə oxşamır"

**İyul ayında Kəlbəcərdə girov götürülən azərbaycanlılar Dilqəm Əsgərov və Şahbaz Quliyevə qarşı separatçı ermənilərin Xankəndində "məhkəmə prosesi" başlatması, girovların fiziki durumları Azərbaycan ictimaiyyətində ciddi narazılıq yaradıb.**

Ermənilərin yaydığı foto və videolardan aydın görünür ki, girovlar zala gözübağlı və hərbçilərin müşayiəti ilə gətirilirlər. Onların görüntüsü isə heç də ürəkaçan olmayıb. Belə ki, ata-analarının məzarlarını ziyarət etmək üçün doğma kəndlərinə gedən Dilqəm və Şahbaz həddindən artıq arıqlayıb, zəifləyiblər, onların səhhətinin yaxşı olmadığı aydın sezilir.

**Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov** modern.az saytına açıqlamasında deyib ki, atasını görəndə çox təsirlənib, atasının vəziyyətindən çox narahatdır: "Əlim çatmır, neyləyə bilərəm. Amma görünən odur ki, hər iki girovun vəziyyəti heç də yaxşı deyil. Nə Qızıl Xaç Komitəsi, nə də başqa təşkilatlar bu məhkəmə, onların aqibətinin necə olacağı ilə bağlı bir söz deyir, hamı susur. Yayılan videoya baxanda atamı görəndə tanımadım. Tanınmayacaq dərəcədə dəyişib. Onun həyatından çox narahatıq. O, çox dəyişib, arıqlayıb, özünə oxşamır".

Azərbaycan ictimaiyyəti isə hökuməti girovların azad olunması üçün ciddi addımlar atmağa çağırır.

Sosial şəbəkələrdə Azərbaycan dövlətinin separatçı ermənilərin ona meydan oxumasına sərt cavab verməsinin vacibliyi vətəndaşlar tərəfindən bildirilir. Hətta belə çağırışlar da var ki, Dilqəm Əsgərova və Şahbaz Quliyevə məhkəmə qurulan gün gərək, Azərbaycan dövləti birbaşa separatçıların mərkəzinə-Xankəndinə bir neçə raket zərbəsi endirəydi. İşğalçı ermənilərə Azərbaycan dövləti öz gücünü bu şəkildə göstərib, onlara xəbərdarlıq etməliydi.

Sabiq daxili işlər naziri İsgəndər Həmidov "Yeni Müsavat"a" açıqlamasında bu cür çağırışların tamamilə qanuni



**İsgəndər Həmidov: "Damarında azərbaycanlı qanı axan, azacıq milli hissi olan hər bir şəxs Dilqəmin və Şahbazın o günə qoyulmasını, o şəkildə məhkəməyə çıxarılmasını həzm etməməlidir"**

və haqlı çağırışlar olduğunu bildirdi. Onun dediyinə görə, həqiqətən də işğalçı ermənilər ata-baba yurduna ziyarətə getmiş Dilqəm Əsgərovu və Şahbaz Quliyevi o vəziyyətə salmaqla və onlara məhkəmə qurmaqla Azərbaycan xalqına, Azərbaycan dövlətinə meydan oxuduqlarını, bizi saymadıqlarını nümayiş etdirirlər. Ona görə də bunun çox ciddi cavabı mütləq verilməlidir: "Görün, bir ovuc erməni Qarabağda özlərini nə qədər arxayın hiss edir ki, Azərbaycanın ərazisində-Bərdənin, Ağdamın bir addımlığında olan Xankəndində azərbaycanlı girovlara məhkəmə şousu qurmaqdan və bunu bizə, dünyaya nümayiş etdirməkdən çəkinmirlər. Damarından azərbaycanlı qanı axan, azacıq milli hissi olan hər bir şəxs Dilqəmin və Şahbazın o günə qoyulmasını, o şəkildə məhkəməyə çıxarılmasını həzm etməməlidir. Hər kəs bilməlidir ki, Dilqəmin və Şahbazın şəxsində ermənilər əslində bütün Azərbaycan xalqını təhqir edirlər. Bu təhqirə Azərbaycan dövləti bundan artıq dözməməlidir.

Xatırlayırsınızsa, Dilqəmlə Şahbaz girov götürülən gün mən bəyan etmişdim ki, Azərbaycan təcili şəkildə əməliyyat hazırlayıb beş-altı erməninin sərhədimizi pozmasını təşkil edib onları əsir götürüb sonra Dilqəmgillə dəyişməyə nail ola bilər. Onu da demişdim ki, belə edilməsə sonra gec olacaq və vəhşi erməni işğalçıları Dilqəmi və Şahbazı elə vəziyyətə salacaqlar ki, o vəziyyətdə yaşamaqları çətin olacaq. Təəssüf ki, bədbin proqnozlar özünü xeyli dərəcədə doğrultdu. Dağ boyda olan Dilqəmlə Şahbazı ermənilər işgəncələrlə elə hala salıblar ki, adam baxanda dəhşətə gəlir. Onlar tanınmaz haldadırlar. And olsun Allaha, şəxsən mən Dilqəmi və Şahbazı o vəziyyətdə görəndə gecə səhərəcən yuxu yata bilməmişəm, onların gözləri gözümün önündən getməyib, səhərə qədər özümə nifrət etmişəm ki, darda olan qardaşlarımıza nə üçün kömək edə bilmirəm. Azərbaycan hökuməti girovlarımızın və torpaqlarımızın azad olunması üçün savaşa başlamalıdır. Başqa yol qalmayıb. Ermənilərin cəzasız qalması onları getdikcə azğınlaşdırır. Atəşkəs onlara sərf edir. Biz atəşkəsə son qoyub bir neçə rayonumuzu azad etsək, ermənilər bizimlə hesablaşmağa məcbur olacaqlar".

İ.Həmidov vurğuladı ki, indiki vəziyyətdə isə ermənilər Dilqəmin və Şahbazın timsalında bütün Azərbaycan xalqına meydan oxumaqda davam edəcəklər.

❑ **Etibar SEYİDAĞA**



# Bu yuxu hələ uzun çəkəcək...

**Hüseynbala SƏLİMOV**

**Hər şey xoş məramdan başlayır. Xoş məram olsa, sülh də olacaq. Ona görə də Ermənistan işğal olunmuş ərazilərdə həbs edilmiş iki azərbaycanlıya prezidentlərin Parisdə görüşdüyü gün "məhkəmə" qurmaya da bilərdi. Amma qurdular, iki insanı gözləri bağlanmış şəkildə BMT TŞ-nin 822 saylı qətnaməsi ilə azad olunması tələb olunan Kəlbəcərdə "məhkəmə" qarşısına çıxardılar...**

Bəlkə də burada da bir siyasi ismarış var. Ola bilsin, bununla Ermənistan Dağlıq Qarabağın elə belə "dövlət" olmamasını, "məhkəmə"si və sərhədləri olan bir "dövlət" olduğunu göstərmək istəyirdi...

Amma o da var ki, dünən Parisdə Dağlıq Qarabağ prezidenti deyil, Ermənistan və Azərbaycan prezidentləri görüşdülər. Elə bu səbəbdən də DQR adlı süni qurum nə qədər cəhd etsə də böyük ehtimalla Azərbaycan rəhbərliyi heç bir vaxt onun təmsilçiləri ilə bir masa arxasında oturmayacaq.

Onlarla da görüşmək olardı, əgər onlar işğal etdikləri ərazilərin Azərbaycanın ərazisi olduğunu, özlərinin də Azərbaycan vətəndaşlığını daşımağa hazır olduqlarını nümayiş etdirmiş olsaydılar. O halda çox şey sadələşə bilərdi-məlum olardı ki, Dağlıq Qarabağın əhalisi həqiqətən də Azərbaycanın ərazi bütövlüyü çərçivəsində özünüidarə hüququ istəyir.

O vaxt sülh sazişi də tez imzalanardı və bir çox müşkül məsələlər daha tez və operativ şəkildə həll olunardı...

Amma indi Azərbaycan və Ermənistan prezidentləri 26 il ərzində baş verən bu prosesi çözmək üçün bir daha Yelisey sarayında görüşməli oldular...

Əksər politoloqlar görüş ərəfəsində öz pessimizmini gizlətməyə cəhd etmədi. Amma o da maraqlıdır ki, görüşdən bir qədər əvvəl Azərbaycanın xarici işlər naziri belə bir bəyanat verdi ki, onun ölkəsi böyük sülh sazişi üzərində işə başlamağa hazırdır...

Buradan belə nəticə çıxarmaq olardı ki, onun ölkəsi - Azərbaycan Minsk Qrupunun həmsədrlərinin hazırladıqları təklifləri, yerli cəmiyyət üçün hələ də qaranlıq qalan təklifləri özü üçün məqbul hesab edir. Deməli, məsələnin artıq Ermənistandan asılı olduğu anlaşılırdı...

Paris görüşü də bununla bağlı ilk müjdəni verməli idi. Aydın olmalı idi ki, bu görüşə qatılmış tərəflər sülhə hazırdırlar, yoxsa görüşlərin daha bir silsiləsini gözləmək lazım gələcək?

Xatırladaq ki, Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə görüşməsi heç də birinci dəfə deyil ki, baş tuturdu. Hələ Heydər Əliyevin vaxtında belə bir proses olmuşdu.

Ona görə də ümidlər bir o qədər də böyük deyildi. Amma hər görüşdə nəsə bir cizgi olur ki, o, prosesin istiqamətini tutmağa imkan verir. Ümid edirdik ki, Paris görüşündə də belə bir detal olacaq...

Amma ilk olaraq ümumi sözlərlə kifayətləndilər. Dedilər ki, tərəflər sülh sazişinin müddəalarını müzakirə ediblər. Sanki kimsə belə hesab edirdi ki, bu kimi ümumi ifadələrlə insanlarda görüş haqqında təəssürat yarada biləcəklər.

Nə etmək olar? Ermənistanı deyə bilmərik, amma Azərbaycanda hökumət cəmiyyəti məlumatlandırmağı vacib hesab etmir, cəmiyyətdən yalnız hökumət adamlarının bəyanatlarına inanmaq və bir də itaət etmək tələb olunur...

Bütün hallarda güman etmirik ki, bir görüşlə proses əhəmiyyətli dərəcədə çözülmüş olsun, baxmayaraq ki, bu, prezidentlərin 2014-cü ildə düz üçüncü görüşü idi. Digər əvvəlki görüşlər də gərginliyi, hətta "tikanlı" siyasi atmacaları ilə yadda qalmışdı...

Yazının əvvəlində xoş məramdan bəhs etdik. Bu yaxınlarda maraqlı bir detal olmuşdu. Ermənistan universitetlərindən birindəki görüşündə bu ölkənin prezidenti demişdi ki, vaxt gələcək azərbaycanlı tələbələr də bu universitetlərdə təhsil alacaqlar. Amma bu, kiçik bir epizod idi və təbii ki, onu davam etdirən və ən başlıcası isə davam etdirmək istəyən belə tapılmadı...

Azərbaycanda da belə epizodlar çox olub. Yetər ki, qalmaqallı "Daş yuxular" romanını və hüquq müdafiəçilərinin Ermənistana səfərlərini xatırlayasan.

Bu xüsusda "Daş yuxular" romanını bir daha qeyd etməyə dəyər. Romanın müəllifi və onun prinsipial tərəfdarları belə hesab edirdi ki, bu əsər qonşu ölkə üçün bir növ xoş mərama start olacaq və Ermənistanda da analoji yazılar meydana çıxacaq.

Təəssüf ki, belə olmadı. Azərbaycanlı yazıçının hətta olmayan günahları belə öz xalqının adına yazması, Ermənistan cəmiyyətini nə kövrəltdi, nə də ki, onlarda da etiraf həvəsi yaratdı. Ona görə də adam bir fikirlə özü istəməsə də razılaşmalı olur - bu yuxu hələ uzun çəkəcək...

# "Khazar İslands"ın İstanbulda uğurlu təqdimatı olub

**Böyük Britaniyanın İDE şirkətinin təşkilatçılığı ilə İstanbulda dünyanın 200-dən artıq aparıcı sərmayə, tikinti və istehsalat şirkətinin nümayəndələrinin bir araya gəldiyi Əməkdaşlıq Platformasında "Avesta Concern"in həyata keçirdiyi "Khazar Islands" layihəsi tədbirinin əsas təqdimatı olub.**

Bu haqda musavat.com-a "Avesta Concern"in mətbuat xidmətindən məlumat daxil olub. Məlumatda bildirilir ki, oktyabrın 23 və 24-də keçirilən tədbirdə ABŞ-ın HİRSEN/BEDNER ASSOCİATES, B&B, WILSONART, İtaliyanın ALBED, İsveçin ELUNGBERGS FACTORY, Türkiyənin "Marmara", "Kale", "Özyazıcı" kimi böyük şirkətləri ilə yanaşı Amerika, Avropa və Asiyadan olan dünyanın ən böyük və qabaqcıl şirkətlərinin təmsilçiləri qatılıb. Dünyanın dörd bir yanından olan 200-dən artıq böyük şirkətin qatıldığı Əməkdaşlıq Platforması tədbirinin iştirakçılarının diqqətinə "Khazar Islands" layihəsini "Avesta Concern"in vitse-prezidenti Taleh Quliyev, Marketinq və Satış Departamentinin rəhbəri



Abdulridha Hasan Salman təqdim edib. Tədbir iştirakçılarının "Khazar Islands" layihəsinə marağı gözlənildiyindən artıq olub. Buna görə də "Khazar Islands" layihəsinin təqdimetmə prosesinə nəzərdə tutulandan daha artıq vaxt ayrılıb. Tədbir iştirakçıları layihə ilə bağlı təqdimatçılara çoxsaylı suallar ünvanlayıblar. Tədbir zamanı daha bir neçə layihənin təqdimatı keçirilsə də, əsas diqqət "Khazar Islands" layihəsinə yönəlib. Bu hal istər təqdimat mərasimində, istərsə də ikitərəfli görüşlərdə aşkar hiss olunub. Dünyanın 200-dən artıq böyük şirkətinin təmsil edən iş adamlarının "Khazar Islands" layihəsinə göstərdikləri maraq məlumat almaqla bitməyib. "Avesta Concern"in nümayəndələri ilə ikitərəfli danışıqlar aparan bir neçə şirkət layihəyə qoşulmaq niyyətində olduqlarını bildiriblər. Bəzi şirkətlərlə gələcək əməkdaşlıqla bağlı ilkin razılıq da əldə olunub. "Avesta Concern"in həyata keçirdiyi "Khazar Islands" layihəsinə qoşulmaq istəyən şirkətlər arasında isə dünyanın böyük sərmayə şirkətlərinin yer alması, tikinti şirkətlərinin əməkdaşlığa can atması bu layihənin dünyanın işgüzar dairələrinin diqqət mərkəzində olduğunu göstərir.

❑ **Xəbər XİDMƏTİ**





# Müxalifət bələdiyyə seçkilərində efir hüququndan məhrum ola bilər

## Bu halda ödənişsiz efir vaxtı bütövlükdə YAP-a ayrılacaq

**60-dan çox dairədə namizədlərlə seçkidə iştirak etməyən partiyaların namizədlərinə bələdiyyə seçkilərində pulsuz efir vaxtı verilməyəcək. Bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov məlumat verib.**



MSK sədri bildirib ki, pulsuz efir vaxt olmadığına görə siyasi partiyalar namizədləri üçün ödənişli efir vaxtı ala biləcəklər: "Qanunvericiliyə uyğun olaraq 60-dan çox dairədə namizədi olan siyasi partiyalara İctimai TV-də pulsuz efir vaxtı veriləcək. Ona görə də siyasi partiyaları seçkilərdə aktiv iştirak etməyə çağırıram".

Qeyd edək ki, Azərbaycanda bələdiyyə seçkiləri dekabrın 23-də keçiriləcək. 118 seçki dairəsini əhatə edən seçkilərdə 1607 bələdiyyəyə 15035 üzv seçilməlidir. Təbliğat-təşviqat kampaniyasına seçkilərə 21 gün qalmış rəsmi start veriləcək.

Seçki Məcəlləsinə görə, teleradio verilişləri təşkilatlarının ayırdıqları pulsuz efir vaxtının ümumi həcminin 1/3 hissəsi müvafiq olaraq bələdiyyələrin 1/3-dən çoxunda və ya yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına müzakirələrin, dəyirmi masaların, digər bu cür təşviqat tədbirlərinin keçirilməsi üçün ayrılır.

Teleradio verilişləri təşkilatlarının kanallarında birgə təşviqat tədbirlərinin keçirilməsi üçün efir vaxtı göstərilən siyasi partiyalar, siyasi partiyaların blokları üçün ayrılır, hesablanır və ayrı-ayrılıqda həyata keçirilir. Bu cür pulsuz efir vaxtından siyasi partiyalar, siyasi partiyaların blokları bərabər əsasla istifadə etməlidirlər. Bu halda hər bir siyasi partiya, siyasi partiyaların bloku tərəfindən istifadə edilən efir vaxtının həcmi ayrıca müəyyənləşdirilir.

Teleradio verilişləri təşkilatlarının efir vaxtından ödənişli əsaslarla istifadə normasi onun ümumi həcminin bələdiyyə üzvlüyünə namizədlərin ümumi sayına bölünməsi yolu ilə müəyyənləşdirilir.

Azərbaycanda hakim Yeni Azərbaycan Partiyasından başqa heç bir siyasi partiyanın bələdiyyə seçkilərində partiya və blok şəklində iştirak etməyəcəyi gözlənilir. Partiyaların son vaxtlar verdiyi açıqlamalardan da belə görünür ki, siyasi partiyaların əksəriyyəti üzvlərinə seçkilərdə sərbəst şəkildə iştirak etmək səlahiyyəti verməkl niyyətindədir. Belə olacağı halda isə efir vaxtı bütövlükdə YAP-a düşəcək.

**Bu barədə fikirlərini "Yeni Müsavat"la bölüşən ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, seçkilərə qatılmaq iki mühüm faktordan asılıdır. Birincisi, partiyaların maliyyə imkanlarından, ikincisi seçkilərə qatılmaq istəyən insanlardan:** "Həqiqətən də qanuna görə, 60 seçki dairəsindən bələdiyyələrə namizədlər irəli sürülməlidir ki, həmin partiyanın ve ya blokun namizədlərinə ödənişsiz efir vaxtı ayrılsın. 60 dairənin isə hər birində ən azı 7-8 namizəd irəli sürülməlidir. Bu da 500-ə yaxın namizəd deməkdir. Partiyanın bu qədər adamın sənədlərini, təbliğat materiallarını hazırlaması, təbliğatını aparması üçün böyük məbləğdə maliyyə tələb olunur. Bu gün dövlət tərəfindən maliyyələşən partiyalar istisna olmaqla, heç bir partiyanın ciddi maliyyə resursları yoxdur. Azərbaycan iqtidarı illərdir ki, müxalifət partiyalarını iqtisadi blokadaya almaqla müxalifəti ağır iqtisadi vəziyyətə salıb. Ona görə də heç bir partiyanın maliyyə vəsaiti yoxdur ki, seçkilərdə namizədlərinin təbliğat və digər işlərinə sərf etsin".

**S.Cəlaloğlunun sözlərinə görə, əgər müxalifət partiyaları bələdiyyə seçkilərinə bir yerdə qatılmaq qərarı versəydi, gücləri toplayıb müəyyən qədər vəsait toplana bilərdi. Böyük birlik şəklində seçkiyə qatılmağın isə başqa çətinlikləri ortaya çıxır:** "Qanunun tələbinə görə, blokda təmsil olunan bütün partiyaların qurultayları, ali məclisləri qərarlar verməli, bunun üçün sənədlər hazırlanmalıdır, namizədi müdafiə etdiyini blokdakı bütün partiyalar sənədlə təsdiqləməlidir. Bir sözlə, blok şəklində iştirak üçün qanunda çoxlu sayda çətin mexanizmlər nəzərdə tutulub ki, partiyalar seçkilərdə birlikdə iştirak edə bilməsin".

**ADP sədri bələdiyyələrin statusunun az olmasının, seçkilərin demokratik keçirilməməsinin də müxalifət partiyalarının bələdiyyə seçkilərində partiya şəklində iştirakına mənfi təsir göstərdiyini söylədi:** "Bələdiyyələr əslində heç bir ciddi əhəmiyyət, əsasən də siyasi əhəmiyyət daşımır. Ona görə də bu seçkilərdə iştirak eləməyin ciddi bir siyasi nəticələri olmur. Digər tərəfdən, Azərbaycanda bələdiyyələr öncədən məlum olan siyahılar əsasında formalaşdırılır. Həmin siyahılar rayon icra hakimiyyətinin rəhbərliyi tərəfindən hazırlanır. Elə bir icra başçısı və icra başçısının müavini yoxdur ki, onun yaxın qohumları bələdiyyə üzvü olmasın. Bələdiyyələr icra hakimiyyətinin və YAP-ın rayon şöbələrinin tam nəzarəti altındadır. Necə ki, YAP parlamenti iflic edib parlament kimi işləməsinə imkan vermir, eləcə də bələdiyyələri iflic edib və faktiki olaraq bələdiyyələr formal xarakter daşıyır. Belə olduğu halda da bələdiyyə seçkisinə bu qədər əziyyət çəkməyə, bu qədər vəsait sərf etməyə ehtiyac qalmır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014




# "Total" prezidentinin ölümündə 50 milyardlıq gizli sövdələşmə izi

## Moskvanın "Vunukovo" aeroportunda dünyanı heyrətləndirən müəmmalı qəza ilə bağlı yeni faktlar üzə çıxıb; olaydakı sirr pərdəsi qatılaşır

**Oktyabrın 21-də Fransanın "Total" neft şirkətinin prezidenti Kristof de Marjeri Moskvada "Vnukovo" hava limanında baş vermiş müəmmalı qəza nəticəsində həlak olub. "Total" prezidentinin, 2 ekipaj üzvünün və bir stüardessanın olduğu "Falcon" təyyarəsi havaya qalxarkən uçuş zolağına çıxan qar təmizləyən maşına çırpılaraq alışıb. Qəza nəticəsində təyyarədə olan 4 nəfərin hamısı həlak olub.**

Qeyd edək ki, "Total" şirkəti 1924-cü ildə yaradılıb, hazırda Fransanın ikinci ən böyük şirkətidir. Şirkətin bazar dəyəri 100 milyard dollardan artıqdır. Avropanın 3-cü ən böyük neft şirkəti olan "Total" Rusiya ilə yaxından tərəfdaşlıq edib. Şirkətin prezidenti de Marjeri Rusiya hakimiyyətinə, konkret olaraq prezident Putinə çox yaxın şəxs hesab olunurdu. "Total" prezidenti Rusiyaya qarşı sanksiyaların tətbiqinə qarşı çıxış edirdi. Bu səbəbdən də bir sıra dairələrdə onun ölümünün sui-qəsd olması ehtimalı ortaya atılıb. Rusiya mediasında isə qəzanı Qərb xüsusi xidmətlərinin təxribatı kimi təqdim etmək cəhdləri var. Artıq "Total" şirkətinə yeni prezident seçilib. Uzun illər şirkətdə çalışmış Tierri Demarre "Total"ın başına gətirilib.

Qeyd edək ki, "Total" şirkətinin prezidentinin öldüyü qəza ilə bağlı bir sıra şübhəli məqamlar var. Mütəxəssislər məhz bu məqamlara istinad edərək qəzada qəsd əlamətlərinin olduğunu bildirirlər. İlk növbədə qəza zamanı təyyarənin tez bir zamanda alışıb tamamən yanması, ancaq təyyarənin toxunduğu qar təmizləyən texnikaya heç bir xəsarət dəyməməsi, hətta traktorçunun xəsarət almaması şübhə yaradır. Bundan başqa, hər zaman yüksək təhlükəsizlik tədbirlərinin görüldüyü hava limanında uçuş zolağına qartəmizləyənin çıxması və uçuş ərəfəsində bunun heç kim tərəfindən qeydə alınmaması və qartəmizləyənin uçuş zolağına rahat şəkildə çıxması şübhə doğurmaya bilməz. Bu səbəbdən bir sıra mütəxəssislər bu hadisəni ən azından çox dəhşətli məsuliyyətsizlik, ən çoxu isə xüsusi-xidmət orqanının hazırladığı sui-qəsd hadisəsi hesab edirlər.

"Total" şirkətinin prezidentinin öldüyü qəzanın sui-qəsd olması ehtimallarını artıran daha bir məqam isə şirkətin prezidentinin personası ilə bağlıdır. Ekspertlərin hesablamalarına və analizinə görə, Rusiyaya tətbiq olunan sanksiyalar nəticəsində ölkənin neft və qaz sektoruna ciddi zərbə dəyib, sanksiyalar ən əsası Rusiyanın neft və qaz sənayesinin yenidən qurulması, istehsal, emal qurğularının yenilənməsi və yeni geoloji axtarışların aparılması üçün müasir avadanlıqların alınması lazım idi. Sanksiyalar səbəbindən Rusiya hazırda bunu edə bilmir.

Ancaq yalnız "Total" şirkətinin prezidenti Kristofer de Marjeri Avropa dövlətlərinin iradlarına baxmayaraq sonuncu görüşdə Putinlə 50 milyardlıq razılaşma imzalayıb. Gizli anlaşmaya əsasən "Total" şirkəti ən müasir neft və qaz istehsalı avadanlıqlarını "Total" şirkətinin Rusiyadakı fəaliyyəti üçün lazım olan avadanlıqlar adı ilə Rusiyaya gətirəcəyi ilə bağlı öhdəlik götürüb. Yəni ən müasir neft və qaz istehsalı avadanlıqları "Total" şirkəti üçün alınacaq və Rusiyaya aparılacaqmış. Bu razılaşmanın qarşılığında Rusiya hakimiyyəti "Qazprom"un əli ilə Çinə ixrac olunacaq neft-qazda "Total"a pay alacağına söz verib. Bu saziş Rusiya hakimiyyəti üçün çox önəmli olub, çünki bunun baş tutacağı təqdirdə Rusiya 2020-ci ilə qədər nəzərdə tutulan neft-qaz istehsalı layihəsinin icrası üçün lazım olan texnikanın 80 faizini əldə edə biləcəkdi. O da bildirilir ki, Fransa rəhbərliyi bu məsələdən qismən xəbərdar olub və Moskva görüşündən qabaq Marjeriyə bu barədə xəbərdarlıq ediblər. Ancaq "Total" prezidenti bu xəbərdarlıqlara əhəmiyyət verməyib.



**Arzu Nağıyev:**
"Qəzanın məhz Rusiya ərazisində törədilməsi də terror məsələsini inkar edir"



**Ədalət Əliyev:**
"Təlimata görə, uçuş zolağında olan bütün texnika kənara çəkildikdən sonra uçuşa icazə verilməlidir"

**Bəs mütəxəssislər nə deyir? "Vunukovo" hava limanında baş verən qəza idi, yoxsa sui-qəsd? "Trend" İnformasiya Agentliyinin baş direktorunun müavini, sabiq təhlükəsizlik zabiti Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiya rəhbərliyi ilə "Total" rəhbəri arasında yaxınlıq olsa da, konkret bu hadisədə terror ehtimalı azdır:** "Qəza ilə bağlı versiyalar kimi, pis hava şəraiti, dispetçerlərin və ya pilotların səhvi, qar təmizləyən texnikanın sürücüsünün istismar qaydalarını pozması araşdırılır. Cinayət işi ilə bağlı dörd nəfər - sürücü, iki nəfər dispetçer və uçuş rəhbəri şübhəli şəxs qismində saxlanılıb. Məlumdur ki, Kristof De Marjeri Rusiyaya qarşı iqtisadi sanksiyaların əleyhinə çıxış etmiş və siyasətin iqtisadiyyata təsirinin daima əleyhinə olmuş, danışıq yollarının tərəfdarı kimi çıxışları ilə yadda qalmış, Avropa İttifaqının bu hərəkətlərini qınamışdır. Bir sözlə, məhz onun səyləri nəticəsində "Total" şirkəti RF-lə əməkdaşlığı davam etdirmişdir".

**A.Nağıyev bildirdi ki, "Total" prezidentinin bu fikirlərinin olması, onun həlakı versiyasının birinin də terror aktı və ya sui-qəsd kimi qələmə verilməsi ciddi görünmür:** "Çünki bu terror aktının maraqlı tərəflərinin Avropa Birliyi və ya ABŞ düşünülsə də, bu addımı atmaq onlar tərəfindən ağlasığmaz görünür. Yəni səbəb və məqsəd aydın deyil. Məlumdur ki, "Total" şirkətinin sanksiyaların əleyhinə getməsi tək prezidentin iradəsi ilə həyata keçirilmir, sadəcə olaraq, onu işdən də azad etmək olardı və ya haqqında digər inzibati qərarlar da qəbul etmək olardı. İkinci tərəfdən isə bu qəzanın məhz Rusiya ərazisində törədilməsi də terror məsələsini inkar edir. Bu versiyalara təkan verən söz-söhbətlərdən biri də qar təmizləyən texnikanın sürücüsünün istintaqçılar tərəfindən əvvəlcə sərxoş olması, sonradan isə onun ümumiyyətlə xəstəliyi ilə əlaqədar içki qəbul etməməsi haqqında yaydıqları məlumatlardır. Belə nəticəyə gəlmək olar ki, "Total" şirkətinin təyyarəsinin qar təmizləyən texnika ilə toqquşmasında Kristof De Marjeri yə qarşı terror və ya sui-qəsd ehtimalı yoxdur".

**Texniki elmlər doktoru, aviasiya üzrə mütəxəssis Ədalət Əliyev deyir ki, baş verən hadisə bütün Rusiyada davam edən nizam-intizamsızlığın "Vunukovo" hava limanında özünü büruzə verməsidir:** "Bu, idarə olunan prosesdir və görünür ki, idarətmə işində ciddi yanlışlığa, intizamsızlığa yol verilib. Birincisi, sürücünün içkili olması, ikincisi qartəmizləmə işlərinin qeyri-qənaətbəxş şəkildə təşkil olunması, nəticədə dispetçer heyətinin nəzarətsizliyi olub və bu, çox biabırçı hadisənin baş verməsi ilə nəticələnib. Hətta məndə belə bir fikir yaranıb ki, bu, qəsdən törədilmiş hadisədir. Rusiyada anarxiyanın hökm sürdüyü, korrupsiyanın ən yüksək həddə çatdığı ölkədə belə halların baş verməsi adi haldır".

**Ə.Əliyev bu hadisənin sui-qəsd olması ehtimalının da qüvvətli olduğunu deyir:** "Mümkündür, ola bilər ki, hansısa kommersiya problemi ilə əlaqədar qəsd törədilib, yəni bunu da istisna etmək olmaz. Ancaq ilk növbədə bu, hava limanında texniki işin yararsız təşkili nəticəsində baş verən hadisədir. Bunu heç bir halda izah etmək, hansısa səbəb tapmaq, don geyindirmək olmaz.

Belə bir hadisənin bu günə qədər baş verməsi haqqında eşitməmişəm. Uçuş zolağında təyyarə başqa bir təyyarə ilə toqquşub. Bu, səhv ucbatından olub. Ancaq bu hadisə tamamilə məsuliyyətsizlikdir. Çünki yer texnikası uçuş zolağında işləyən zaman uçuş zolağı tamamilə bağlı olur. Uçuş zolağının açılmasına yalnız uçuşları idarə edən birinci şəxs özü uçuş zolağını o başından bu başına gedərək uçuş zolağı üçün heç bir maneənin olmadığını müşahidə etdikdən sonra dispetçer sisteminə zolağın eniş və qalxış üçün yararlı olması haqda məlumat verir. Başqa cür də mümkün deyil. Orda olan bütün texnika kənara çəkildikdən sonra uçuşa icazə verilməlidir. Təlimat bu cürdür".

**Ədalət Əliyev deyir ki, bu hadisə ilk növbədə Rusiyada baş alıb gedən korrupsiya və anarxiyanın nəticəsi kimi qiymətləndirilməlidir:** "Ukraynanın şərqində Malayziya təyyarəsini Rusiyanın dəstəklədiyi separatçılar BUK raket kompleksi ilə vurub saldılar. İndi hər gün Rusiya KİV-ləri təbliğat aparır ki, təyyarəni ukraynalılar vurub. Bu hadisələr oxşardı. Orda da intizamsızlıq oldu, burda da. Ukraynada kortəbii siyasi hərəkət oldu, Moskva aeroportunda isə bu cür texniki məsuliyyətsizlik oldu. Bütün bunlar Rusiyada hökm sürən anarxiyanın, özbaşınalığın nəticəsidir".

❑ Kənan RÖVŞƏNOĞLU

# Poroşenko Putinin ilkin planlarını alt-üst etdi

## "Ukrayna məsələsində Kreml güzəştə gedə bilər"



**Rusiyalı politoloq Aleksandr Konovalov bildirir ki, Moskva ilə Kiyev arasında qazla bağlı problemin həlli bütövlükdə Vladimir Putindən asılıdır. Bu barədə əsası 1880-ci ildə qoyulmuş Fransanın "La Croix" qəzeti yazır. Əsasən katolik düşüncəsinə söykənən bu mətbuat orqanı bildirir ki, Aleksandr Konovalov Moskvadakı Strateji Dəyərləndirmələr İnstitutunun prezidentidir. O, narahatdır ki, Ukraynada seçkilərdən qərbmeylli siyasətçilərin qalib çıxması bu ölkənin şərqində separatçılarla yerli hərbçilər arasında yaşanmış münaqişənin yenidən alovlanmasına təkan verə bilər.**

"Belə bir ssenari xeyli real görünür. Separatçılar münaqişəni davam etdirməyə hazırdırlar, ancaq Kreml və Vladimir Putin vəziyyətə baxacaqlar. Əgər bu seçki Ukraynaya stabillik gətirsə, Rusiya Ukraynada sülhyaratma təşəbbüsünü genişləndirməli olacaq. İrəlidən gələn qışı da unutmaq olmaz. Ukrayna ordusu münaqişə zonasındakı yerli şəraitə adaptasiya olunmayıb. Separatçılar isə daha hazırlıqlıdır, yerli şərait də onların xeyrinədir. Ancaq hər şey sonda Moskvanın qərarından asılı olacaq", politoloq qəzetə bildirib.

Separatçılarsa axıra kimi getmək fikrindədir. Onlar artıq hakimiyyətin dadını hiss ediblər. Kreml isə kompromislərə hazırdır. Moskva elə bir görüntü yarada bilər ki, o, olduğu yerindəcə vurnuxur. Ancaq irəliyə və ya geriyə elə bir addım atmır. Bunun üçünsə Moskvaya təminat lazımdır ki, Ukrayna Krım məsələsini yenidən gündəmə gətirməyəcək. Əlbəttə, bu, yazılı anlaşma ilə əldə oluna bilməz. Avropa şübhəsiz ki, Rusiyadan Krımı qaytarmağı tələb edəcək və bu işğalla razılaşmayacaq. Rusiya Ukraynanın şərq vilayətləri ilə bağlı güzəştə getməklə buna nail ola bilər. Moskvanın düşüncəsinə görə, Krım məsələsində Abxaziya modeli ən yaxşısıdır. Bu ölkə yarım-müstəqil dövlətdir, ancaq Rusiyanın total nəzarəti altındadır.

"Moskva Ukrayna parlamentində gedən prosesləri yaxından izləyəcək, xüsusən prezidentə bağlı deputatların siyasi gedişlərinə baxacaq. Vladimir Putin Ukrayna prezidentini daha yaxşı tanımağa çalışır, onun gücünü müəyyənləşdirmək istəyir. Poroşenko Putinin nəzərində şəxsi rəqibdir, çünki o, Putinin Ukrayna ilə bağlı ilkin planlarını alt-üst etdi. Ancaq iki ölkə prezidentinin müntəzəm görüşməsi də yaxşı əlamətdir", politoloq bildirib.

Hazırda Qərbin sanksiyalarından daha çox Putini neftin qiyməti narahat edir. Çünki neftin qiymətinin aşağı düşməsi Rusiya iqtisadiyyatına birbaşa təsir edir. Əgər ruslar hiss etsələr ki, onların yaşam standartları aşağı düşür, onda Putinə verilən dəstək sürətlə azala bilər. Bu isə liberallara xeyli üstünlüklər verəcək. Artıq Rusiya hakimiyyətinin yüksəkliklərində liberallar təsir dairəsi yaratmaqdadır. Düzdür, onlar Putinə yaxın birinci dairədən kənardadırlar. Birinci dairədə daha çox millətçilər söz sahibidir.

O ki qaldı qazla bağlı problemə, o iş Vladimir Putinsiz həll oluna bilməz. Putin isə artıq qərar verib. Ukrayna əvvəl aldığı qazın pulunu verməlidir. Yalnız bundan sonra yenidən qaz ala bilər. Bu isə onun göstəricisidir ki, Rusiya Ukraynadan Qərbə yaxınlaşmanın heyfini çıxır. Müstəqilliyin belə tərəfləri də var...

❑ Elbəyi HƏSƏNLİ



# Ceyhunun bayraq davası

**Xalid KAZIMLI**

**Jurnalist həmkarım Ceyhun Musaoğlunu çoxdan tanıyıram - 15 il qabaqdan. O zaman mən "Reytinq" qəzetinin baş redaktoru idim, o da hansısa qəzetdən müsahibəyə gəlmişdi. İmzama hörmətini izhar edə-edə bir xeyli dirəşdi (o zamanlar qəzetçilər müsahibəni mübahisə janrında qururdular və yaxşı alınırdı). Çox emosional idi, amma xoşuma gəldi. Ondan sonra da harda rastlaşırdıq, mehribanlıqla görüşürdük.**

Sonralar çox rastlaşdıq, yollarımız gah kəsişdi, gah ayrıldı, arada siyasi mübahisələrimiz, hadisələrə, proseslərə tam ziddiyyətli baxışlarımız da oldu. Amma Ceyhundan heç vaxt nə şəxsimə, nə çalışdığım media orqanına saygısızlıq görmədim. Daima saygılı oldu, böyük-kiçik yeri bildi, ədalətli olmağa çalışdı.

Ancaq Ceyhunun elə bir xasiyyəti var ki, bu, ona həm problem yaradır, həm də üstünlük qazandırır. O, mübahisə sevəndir və apardığı mübahisədə mütləq emosional olur, səsini qaldırır.

Yaxşı ki, işlədiyi kollektivlərdə onun bu xasiyyətinin üstündən keçirlər, ürəyinin saflığını, niyyətinin təmizliyini nəzərə alırlar. Yoxsa onun kimi adamları dışlamaq, qapı dalında qoymaq bu ölkədə su içimi asanlığındadır.

Ceyhunun emosionallığı, hōcətliyi haqqında yazı yazmağım əbəs yerə deyil. O, bu xasiyyətini Ukraynada da göstərdi.

Oktyabrın 23-ü idi, Kiyevin mərkəzindəki Olimpiya stadionunda "Dnepr" və "Qarabağ" komandaları arasında keçiriləcək oyuna baxmağa gedirdik və yürüş təşkil etmişdil. *(Yeri gəlmişkən, səfərimizi "Azərçay" firması və "Akkord" şirkəti maliyyələşdirmişdi).* Böyük bayraq götürmüşdük. 14 jurnalist üç rəngli milli bayrağımızı daşıyır, şüarlar qışqırırdıq. Şəkil çəkdirəndə çalışırdıq ki, bayrağın rəngləri, ay-ulduzu tərsinə durmasın, çünki təkcə buna görə ura-patriotların bu saf təşəbbüsümüzü bir qələmlə rəzil edəcəyini bilirdik. Stadiona yaxınlaşanda uca səslə və xorla dövlət himnimizi də oxuduq. Ceyhunun səsi hamıdan bərk gəlirdi. Yol kənarında dayanan polislər, eləcə də at belində əmrə müntəzir oturmuş süvari asayiş keşikçiləri bizə maraqla baxırdılar, hər hansı bir qımıldanma yox idi. Hərçənd onlar yaxınlaşıb "sizin yürüş keçirmək, şüar qışqırmaq, oxumaq, Kiyev xalqının asayişini pozmaq hüququnuz yoxdur" deyə bilərdilər.

Bununla belə, məlum oldu ki, stadionun girişində asayiş və təhlükəsizliyə nəzarət edən orqan işçiləri heç də mələk deyillər. Onlar bizim artıq səliqəylə qatlayıb bükdüyümüz milli bayrağa ilişdilər, onun siyasi səciyyə daşıdığına və miqyasına vurğu edərək tribunaya buraxılmayacağını bildirdilər. Baş rolda Kliçkoya bənzəyən bir polkovnik idi, sakit sifətlə deyirdi, olmaz. Qrupun rəhbəri Nicat Hüseyn Dağlar və rus dilində ana dilindən də rəvan, gözəl danışan Cavid Osmanov nə billah elədilərsə, polkovniki bayrağımızı stadiona buraxmasına razı sala bilmədilər. Mübahisə qızışdı və Ceyhun ortaya yeridi. O özündən az qala yarım metr hündür olan polkovnikin çənəsinin altına yeriyərək emosional şəkildə, həm də Azərbaycan dilində hayqırmağa başladı. Polkovnik təmkinini qoruyurdu. Ceyhun isə artıq nə Nicata, nə Cavidə, nə də başqa heç kəsə imkan vermirdi, "zakonu göstər, davay, pokaji zakon, harda yazılıb ki, stadiona milli bayraq aparmaq olmaz, zaçem nelzya, davay, zakon pokaji" deyirdi. Polkovnik və onun ətrafındakılar təmkinli idilər, soyuqqanlılıqlarını qoruyurdular, eləcə "nelzya" deyirdilər və bayrağın saxlama kamerasına təhvil veriləcəyini, oyundan sonra qaytarılacağını bildirirdilər.

Ceyhun Musaoğlu isə əl çəkmirdi. Hamımız mübahisədən bezmişdik, bu durumun missiyamızın əsas məqsədinə mane olacağını, bizim ümumiyyətlə stadiona buraxılmayacağımızı düşünürdük *(İnanın ki, Azərbaycanda olsa, elə də olardı).* Ancaq Ceyhun dirəşmişdi. Axırda o üzünü polkovnikə tutdu: "Eta Rassiya? Tı Putin? Skaji, niyə olmaz? Mı v Rassiyi, çto li?"

Bu söz polkovniki necə tutdusa, o, bayrağın Ceyhuna verilməsinə dair tapşırıq verdi. Görünür, polkovnik aqressor Rusiya və onun irticaçı lideri ilə bir cərgəyə qoyulmasını istəmədi.

Ceyhun isə bayrağı bağrına basaraq, hirsli-hirsli tribunada oturacağı yerə getdi.

Həmin gün biz Ceyhunun emosionallığı hesabına stadionun girəcəyində, Qurbanın soyuqqanlılığına görə isə meydançada qalib gəldik.

Eşq olsun emosional və təmkinli qardaşlara!

# Müsavat Məclisinin bəyanatı gərginliyi daha da artırdı

## Partiyadakı narazılar fraksiya yaratmaq istəyir; Qubad İbadoğlu bəyanatı MNTK-ya təzyiq kimi qiymətləndirdi

**Müsavat Məclisi sonuncu iclasında qurultayın nəticələri və ondan sonra baş verənlərlə bağlı bəyanat qəbul edib. Bəyanat əvvəlcə sərt formada yazılsa da, Məclis üzvlərinin tövsiyəsi ilə yumşaldılıb. Musavat.com-un xəbərinə görə, bəyanatda qurultay tarixi aldandırılıb və bildirilib ki, qurultay aşkar, şəffaf keçirilib: "Bu, Azərbaycan tarixində keçirilən ilk seçkidir ki, səslərin hesablanması bilavasitə canlı yayımla internet televiziyası vasitəsilə translyasiya edilib".**

Bəyanatda daha sonra bildirilir ki, səsvermənin nəticələrindən narazı qalan bəzi partiya üzvləri, eyni zamanda bəzi kənar qüvvələr qurultayda hər hansı pozuntular barədə faktlar ortaya qoya bilməsələr də, təəssüf ki, mətbuatda və sosial şəbəkələrdə seçkilərin ədalətli olmadığı haqqında əsassız iddialar irəli sürür, qurultayın qərarlarını və seçkilərin nəticələrini şübhə altına almağa cəhd ediblər: "Xüsusən oktyabrın 6-da Müsavat Partiyasının mərkəzi qərargahında keçirilən toplantıda həm əvvəlki, həm də yeni seçilmiş partiya rəhbərliyinin ünvanına bir sıra əsassız ittihamlar səslənmişdir. Müsavat Partiyasının Məclisi bu iddiaları partiyanın ali orqanı olan qurultayın qərarlarına saygısızlıq və Müsavat Partiyası üzvlərinin iradəsi ilə hesablaşmamaq cəhdi kimi qiymətləndirir və bunun partiyanın nizamnaməsinə və məramına uyğun olmayan hərəkətlər olduğunu bəyan edir. Müsavat Partiyasının Məclisi həmçinin qurultayda Məclisə üzv seçilmiş partiya üzvlərinin ünvanına deyilən aşağılayıcı fikirlərə qətiyyətlə etiraz edir, bu iddiaları irəli sürənlərdən belə fəaliyyətə son qoymağı tələb edir. Müsavat Partiyasının Məclisi bütün müsavatçıları və partiyanın səlahiyyətli orqanlarını təşkilat daxilində partiya maraqlarına cavab verməyən və üzvlər arasında narazılıq yaradan şəxslərə münasibətdə prinsipial mövqe nümayiş etdirməyə çağırır".

**Narazı namizədlərdən Qubad İbadoğlu isə həmin bəyanata etirazını bildirib:** "Mərkəzi-Nəzarət Təftiş Komissiyasının bizim müraciətimiz əsasında qurultaya qədər təşkilat komitəsinin işində, qurultay günü isə səsvermə prosedurlarındakı pozuntulara dair araşdırması başa çatmadan və rəyi açıqlanmadan Müsavat Məclisi siyasi bəyanat verməli deyildi".

**Q.İbadoğlu APA-ya bildirib ki, MNTK-nın araşdırması bitmədən qurultaydan sonrakı ilk Məclisdəki çıxışlar və bəyanat yalnız bir qrupun mövqeyini ifadə edir:** "Odur ki, bu açıqlamaları və bəyanatı MNTK-nın işinə təzyiq kimi qiymətləndirirəm".

**Müsavatın Məclis üzvü Mustafa Hacıbəyli isə keçmiş namizədə cavab verib.** "Mərkəzi-Nəzarət Təftiş Komisiyasının qərarı olmadan seçkinin saxtalaşdırıldığını iddia etmək olar, amma bu iddianın əsassız olduğunu demək olmaz?",- deyə o, aznews.az-a açıqlamasında bildirib. O qeyd edib ki, Məclisin qərarı əsassız ittihamlara aiddir, şikayətə yox: "Mərkəzi-Nəzarət Təftiş Komissiyasının qərarına belə sayğılı idilərsə, niyə hələ şikayət verməmdən bunu iqtidar mediasına çıxarırdılar? Onlar ittiham etmək hüququna malikdirsə, ittiham olunanlar da cavab vermək hüququna malikdir. Söz azadlığı tək ittihamçı tərəfə aid hüquq deyil. İkincisi, Məclisin qərarı əsassız ittihamlara aiddir, şikayətə yox. Əgər şikayətçi bu bəyanata qarşı çıxırsa, o, öz şikayətinin də əsassız olduğunu etiraf etmiş olur".



Müsavat Partiyasının Divan üzvü Vəfa Cümşüdlü isə qeyd edib ki, partiyanın nizamnaməsində başqanın keçirdiyi toplantılara gəlməyən Məclis üzvlərinə cəza nəzərdə tutulmayıb, ancaq cəza tədbiri yalnız Məclisin reqlamenti ilə müəyyənləşə bilər. Onun sözlərinə görə, nizamnaməyə əsasən hər bir partiya üzvü 3 aydan artıq qurumla əlaqə saxlamırsa, ona partiya üzvü haqqında cəza tədbiri nəzərdə tutulub. "Üzürsüz səbəbdən toplantılarda iştirak etməyənlər haqda isə Məclis üzvləri etimadsızlıq məsələsini qaldıra bilər. Yəni həmin müsavatçı xəbərdarlıq və töhmət almalı, son məqamda isə partiyadan xaric edilməlidir. İndiki məqamda isə toplantılara gəlməyənlər barəsində artıq Məclisə məlumat verilib. Araşdırma aparıldıqdan sonra üzürlü və üzürsüz səbəblər müəyyənləşdiriləcək", - deyə Vəfa Cümşüdlü bildirib.

Qeyd edək ki, Müsavat Məclisinin toplantılarına Qubad İbadoğlunun tərəfdarları qatılmır.

Yeri gəlmişkən, Müsavatda narazı namizədlərin və tərəflərin fraksiya yaradacağı barədə xəbər yayılıb. "Qafqazinfo"ya daxil olan məlumata görə, Müsavat Partiyası daxilində hazırkı rəhbərliyə müxalif olacaq fraksiya yaradılır. Fraksiyanın əsas təşəbbüskarı qurultayda başqanlıq seçkisi zamanı namizəd olan Tural Abbaslıdır. T.Abbaslı həmin seçki zamanı 19 səs toplaşmışdı. Bu günə kimi gənc namizəd sakit və diplomatik davranırdı. İki dəfə Məclis üzvlüyünə namizədliyini versə də, seçilməyib.

Bildirilir ki, artıq T. Abbaslı və tərəfdarları digər məğlub olan namizəd Q. İbadoğlunun tərəfdarları ilə danışıqlara başlayıb. Q.İbadoğlu hazırda xaricdə olduğundan təfərdən qayıtdıqdan sonra özü ilə danışıqlar aparılacaq. Açıq formada bu fraksiyada iştirak etmək istəsə, onun da adı açıqlanacaq. Razılıq verəcəyi təqdirdə, fraksiya həmsədrlik instutu əsasında fəaliyyət göstərəcək. Müzakirə prosesindən asılı olaraq fraksiyanın yarandığı yaxın günlərdə elan edilə bilər.

Yeni fraksiyanın adı haqda konkret qərar verilməsə də, "Gənclər fraksiyası" adı ilkin variant kimi müzakirə edilir. Məlumata görə, yeni fraksiya yalnız nizamnamə çərçivəsində fəaliyyət göstərməyə çalışacaq. Birliyə narazı olan hər kəs - rayon təşkilat sədrləri, sərbəst Məclis üzvləri, ziyalılar, xanımlar və s. cəlb ediləcək.

**T. Abbaslı özü də yayılan xəbərləri təsdiqləyib. O, musavat.com-a bildirib ki, fraksiya ilə bağlı yayılan xəbərlər doğrudur:** "Bu istiqamətdə çoxdan müzakirələr aparılır, danışıqlar gedir. Qubad bəyin tərəfdarları da vaxtı ikən bu fikirdə olublar, biz də bu məsələləri müzakirə etmişik. Bu, olsa belə, nizamnamə çərçivəsində olacaq, əsas məqsəd partiya daxilində demokratiyanın, balansın yaradılmasıdır. Məqsəd tək bir tərəfin, qalib gələn tərəfin yox, digər tərəflərin də təmsil olunmasıdır. Bu gün partiya daxilində maksimum nəzarətə ehtiyac var".

T.Abbaslı bildirib ki, fraksiyanın indiyədək yaradılmaması Müsavatdakı seçkini və təyinatları gözləməklə bağlı deyil: "Biz heç bir təyinat gözləmirdik. Artıq idarəçiliyin konturları bəlli olub. Növbəti illərdə idarəçilik necə olacaq, bəllidir. Vədlər verilsə də, hər şey gözlənilən kimi oldu".

**Q. İbadoğlu isə Musavat.com-a deyib ki, fraksiya müzakirələri köhnə məsələdir və bununla bağlı çoxsaylı təkliflər var:** "Müxtəlif təkliflər səslənib, ancaq yekun qərarımız olmayıb. Bununla belə, bu məsələ gündəlikdə qalır. Fraksiya yaradılması məsələsi ilə bağlı son müzakirələrdən isə ölkədə olmadığım üçün xəbərsizəm. Görüşlər olubsa, məlumatsızam. Məsələ mənimlə birbaşa müzakirə olunmayıb".

❑ **Röya RƏFİYEVA**

# Şeyx ehsan qadağasını sındırdı



# Allahşükür Paşazadənin Kamal Abdulla üzərində gizli qələbəsi

## QMİ sədri hökumətin ehsan məclislərini yasaqlayan qərarını faktiki olaraq dayandırıb, hakimiyyət daxilində Paşazadəyə hücum əks təsir göstərə bilər; Şeyxin həddən artıq sıxışdırılması onun İranla yaxınlaşmasına səbəb ola bilər...

**Hökumətin avqustun 3-cü ongünlüyündə rəsmən başlatdığı ehsan qadağası faktiki olaraq işləmədi. Xüsusən də ölkənin az qala yarısının yerləşdiyi Bakı və Sumqayıtda ehsan qadağasına faktiki olaraq əməl edilmədi; böyük "sabotaj" göz önündədir. Artıq iki aydan çox vaxt keçib və hazırda paytaxtın demək olar ki, bütün mərasim zallarında yeməkli ehsan mərasimləri təşkil olunur. Özü də hökumətin qadağa qərarına tam zidd olaraq əvvəlki kimi yemək süfrələri, meyvə, şirniyyat verilir.**

Yalnız bölgələrdə qadağalarla bağlı müəyyən məhdudiyyətlər tətbiq olunur. Yerli məmurlar kəndlərdə yas yerlərinə gedərək insanları ehsan süfrəsi təşkil etməyə qoymurlar. Ancaq bizə gələn məlumatlara görə, artıq bir sıra rayonlarda da ehsan yasaqları bir xeyli dərəcədə yumşalıb. Əvvəlki günlərdə olduğu kimi məmurlar evlərə gedib ehsan süfrələrindəki ərzağı müsadirə etmirlər. Hətta bir sıra rayonlarda artıq camaat ehsan verə bilir. Təbii ki, bəzi bölgələrdə bu iş üçün yerli məmurlara rüşvət verərək onları razı salırlar. Bununla bağlı bir neçə gün əvvəl biz də yazdıq, hətta bəzi rayon və şəhərlərdə ehsan rüşvətinin dəqiq məbləği də bəllidir.

Ancaq əlbəttə, bu qadağa bütövlükdə respublika üzrə keçərli olmadı. Azərbaycan kimi ölkələrdə bu cür qanun və ya qərarların işləməməsinin bir səbəbi olur. Bu da çox güclü bir şəxsin yeniliyə qarşı olmasıdır. Bu nümunədə "sabotaj"çı bütün Qafqazın şeyxidir. Ehsan qadağasının işləməməsinin də əsas səbəbkarı Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadə oldu. Şeyx bütün gücü və nüfuzundan istifadə edərək ehsan qadağasına qarşı çıxdı. Nəticə isə ortadadır - Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullanın başlatdığı ehsan süfrələrinə müdaxilə prosesi faktiki olaraq işləmədi.

Bu barədə daha əvvəl də yazmışdıq. Şeyx kifayət qədər böyük biznes şəbəkəsinə sahibdir və o, inanclıların liderindən daha çox hakimiyyətdə, dövlət strukturlarında adamları olan oliqarxa çevrilib. Onun yaxın adamları bəzən siyasi hakimiyyətlə kəllə-kəlləyə gəlməkdən belə çəkinmirlər. Məsələn, hörmətli Şeyximizin qudası, deputat Qalib Salahzadə 28 oktyabrda Milli Məclisdə çıxış edərək, siyasi hakimiyyətin kursunu, mövcud iqtidarın əsas ideoloqlarından sayılan Ramiz Mehdiyevinsə məlum tezislərini kəskin tənqid edib. O, bütün bunları edəndə, özünün nüfuzu ilə yanaşı, təbii ki, Şeyxin gücünü də hesablayaraq, bu faktora arxayın olaraq, bu cür şıltaqlıqlara yol verə bilir. Bu nümunə həm də onu göstərir ki, A. Paşazadə onun biznesinə və çevrəsinə təhdidi məhz Prezident Administrasiyasından görür və bu səbəbdən də özünün parlamentdəki "toxunulmaz adamı"nı həmin ünvana qarşı danışdırır...

**"Şeyxin yaxın adamları bəzən siyasi hakimiyyətlə kəllə-kəlləyə gəlməkdən belə çəkinmirlər. Məsələn, hörmətli Şeyximizin qudası, deputat Qalib Salahzadə 28 oktyabrda Milli Məclisdə çıxış edərək, siyasi hakimiyyətin kursunu, mövcud iqtidarın əsas ideoloqlarından sayılan Ramiz Mehdiyevinsə məlum tezislərini kəskin tənqid edib. O, bütün bunları edəndə, özünün nüfuzu ilə yanaşı, təbii ki, Şeyxin gücünü də hesablayaraq, bu faktora arxayın olaraq, bu cür şıltaqlıqlara yol verə bilir"**

Təbii ki, hakimiyyət uzun illər Azərbaycan kimi müsəlman ölkəsində mühüm olan din sahəsində Şeyxi əsas söz sahibi kimi tanıyıb. Onun avtoriteti ilə hesablaşırlar - çünki ölkə prezidenti Şeyxi sayır və ona hörmət edir. Ancaq bütün bunlara baxmayaraq, hakimiyyət daxilində Şeyxin ciddi rəqibləri var və bu rəqiblər zaman-zaman QMİ sədrini bu və ya digər formada sıxışdırır, zəiflətməyə, gücünü, təsir imkanlarını azaltmağa çalışır. Şeyx isə hər dəfə ona qarşı olan hücumlar zamanı əsas dayağı olan ölkə prezidentindən dəstək alır. Ekspertlər də iddia edirlər ki, Şeyxi güclü edən əsas faktor da onun dövlətin birinci şəxsinə olan yaxın münasibətidir. Bir sıra şəxslərsə iddia edirlər ki, Şeyx həzrətləri bu mövqedən və münasibətdən ölkədə dinin və inanclıların nüfuzlarının qalxması, mühitin daha da yaxşılaşması üçün deyil, özünün şəxsi mənfəətləri üçün sui-istifadə edir...

Mövzuya qayıtsaq, xatırlada bilərik ki, avqustun sonlarında hökumətin qəfil qərarla yas mərasimlərində ehsan süfrələrini qadağan etməsi və bununla bağlı bütün yerli hakimiyyət orqanlarına tapşırıqların verilməsi QMİ-ni narazı saldı. Əvvəla, qərar belə görünür ki, Şeyxlə məsləhətləşmədən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və prezidentin bu sahə üzrə müşavirliyi tərəfindən alınmışdı. İkincisi, bu addım birbaşa QMİ-nin nəzarətində olan böyük bir şəbəkənin - Şeyxin "yas biznesi"nin fəaliyyətinə zərbə vururdu. Şeyx uzun illər şəriksiz söz sahibi olduğu sahədə başının üzərindən, özü də maraqlarına zərbə olan bir qərarın alınmasından narazı qalmışdı. Bu səbəbdən də ilk günlərdən QMİ-nin yerləşdiyi "Təzəpir" məscidindəki mərasim zalları, eləcə də şəhərin digər yerlərində fəaliyyət göstərən mərasim zalları bu qadağaya riayət etmədi, ehsan verməkdə davam etdi.

QMİ isə bəyan etdi ki, idarə artıq 3 il əvvəldən xalqa müraciət edərək israfa yol verməməyə çağırıb, ancaq eyni zamanda QMİ bu məsələdə məcburiyyətin yolverilməz olduğunu qeyd edirdi. Beləliklə, aydın oldu ki, ölkənin əsas dini idarəsi, məscidlərə nəzarət edən qurum ehsan süfrələrinin məhdudlaşdırılmasının məcburi olmasına qarşıdır. Bundan sonra DQİDK müəyyən qədər geri çəkilərək, məcburi olaraq ehsan süfrəsinin qadağan edilməsinin doğru olmadığını, insanların bunu könüllü olaraq etməli olduğunu bəyan etdi. Lakin ötən həftə QMİ təmsilçisi ilə DQİDK əməkdaşının televiziya efirində az qala dava-dalaş həddinə çatan mübahisəsi göstərdi ki, dövlət qurumu ilə QMİ arasında ciddi soyuqluq var və davam edir. Bundan başqa, DQİDK rəhbərliyinin komitə yanında savadlı ilahiyyatçılardan ibarət dini maarifçilik komissiyasının yaratması onu göstərdi ki, komitə Şeyxin sahəsinə müdaxilə etməkdə qərarlıdır. Hakimiyyət içərisində məhz komitənin əli ilə Şeyxi sıxmağa, onun mövqelərini zəiflətməyə çalışan qüvvələr var.

Şeyx isə ötən iki ayda bu prosesə güclü müqavimət göstərdi. İlk gündən bu qadağanın milli adət-ənənələrə zidd olduğunu, zorakılıqla ehsan süfrələrinin məhdudlaşdırılmasının yanlışlığını, eləcə də bu cür yas mərasimlərinin keçirilməsinin məhz vəhhabilərin istəkləri və təsiri ilə həyata keçirildiyini bəyan etdilər. Həqiqətən də qeyri-ənənəvi dini cərəyanlar Azərbaycanda keçirilən ənənəvi yas mərasimlərinə qarşıdırlar. Bizə gələn bilgilərə görə, ehsan qadağası ortaya çıxdıqdan sonra və özünə qarşı ciddi təzyiqlərin başladığını hiss edən şeyxülislam dövlət başçısına xitab edib və onun bu məsələdə dəstəyini almağa çalışıb. Gələn məlumata görə, ölkənin birinci şəxsi növbəti dəfə QMİ sədrini qoruyub.

Ancaq görünən odur ki, Şeyxə qarşı təzyiqlər davam edəcək. Onun mövqelərini zəiflətmək üçün dini sahədə hökumət xətti ilə əlavə addımların atılması baş verəcək ki, bu da Şeyxi xeyli dərəcədə narahat edir. Ancaq Şeyxin həddən artıq sıxışdırılması onun kənarda dəstək axtarmasına, İranla yaxınlaşmasına səbəb ola bilər ki, bu da Azərbaycanın maraqlarına uyğun deyil. Bu barədə QMİ sədri özü də daha əvvəllər xəbərdarlıq edib. Bu mənada hakimiyyət daxilindəki mövqe savaşlarının dini sahəyə transfer olunması Azərbaycan üçün çox təhlükəli nəticələrə gətirə bilər. Çünki indi üzdə olmasa da, Azərbaycanda xarici ölkələrin güclü "din diasporu" mövcuddur. Bu qüvvələr hər fürsətdə öz mövqelərini möhkəmləndirmək, ənənəvi İslamı zəiflətməyə çalışırlar.

❑ **Hüseyn DƏMİRÇİ**



# Atalarını bitirən "avtoş" oğullar

## Biri maşınla adam öldürür, o biri sərxoş vəziyyətdə yola çıxır...




**Son bir neçə ildə məmur övladlarının qudurğanlığı, avtoşluq hekayələri cəmiyyətin müzakirə mövzusudur. Elə ay olmur ki, hansısa yüksək çinli məmur övladının törətdiyi qəza, avtoxuliqanlıq, qanlı dava hadisəsi ilə bağlı mediada xəbər yer almasın. Artıq bu hadisələrin bəziləri məhkəmə iclaslarına daşınıb, bəziləri isə ciddi kriminal hadisə kimi arxivlərdə yer alıb.**

Bunlardan ən çox səs-küy törədəni heç şübhəsiz ki, 2013-cü ilin martında Bakı şəhərinin Suraxanı rayonunda, Zığ yolu şossesində baş verən ağır yol-nəqliyyat hadisəsi oldu. Hava limanı istiqamətində hərəkətdə olan "Mercedes Galendewagen" markalı minik maşını idarəetmədən çıxaraq Azərbaycanın mahir tar ifaçısı, xalq artisti Ağasəlim Abdullayev və ailə üzvlərinin də içində olduğu "VAZ 2106" markalı minik maşınına çırpıldı. Qəza nəticəsində "VAZ 2106" da olan sərnişinlər, xalq artistinin həyat yoldaşı Brilliant Abdullayeva hadisə yerində, azyaşlı nəvəsi Ağasəlim Abdullayev xəstəxanaya aparılarkən yolda dünyasını dəyişdilər. Xalq artisti Ağasəlim Abdullayev, oğlu Vüqar Abdullayev və gəlini Səadət Abdullayeva isə müxtəlif dərəcəli bədən xəsarətləri aldılar.

Araşdırma aparılarkən məlum olub ki, qəzaya səbəb "Mercedes"in sürücüsü Xalid Mədətovun həddən artıq sərxoş vəziyyətdə sükan arxasına oturması və sürət həddini aşması olub. Həmçinin o da aydın olub ki, qəza törədən Xalid Mədətov ötən ilin oktyabrında ləğv edilən Xəzər Dəniz Neft Donanması İdarəsinin sabiq rəisi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini vəzifəsini icra edən Mübariz Mədətovun oğludur.

X.Mədətov 12 il müddətinə azadlıqdan məhrum edilib.

***

2014-cü ilin aprel ayında Bakının Zığ şossesində (aeroport yolu) iki avtomobilin həddən artıq yüksək sürətlə yarışa çıxdığını əks etdirən video yayıldı. Araşdırma nəticəsində məlum oldu ki, avtomobilin sahibi Yevlax gömrüyü rəisinin oğlu, DİN-də işləyən Həsənov Turaldır. Gömrük məmurunun oğlu Tural Həsənov 20 sutka azadlıqdan məhrum edildi və polis sıralarından qovuldu.

Oktyabrın 15-də Bərdə rayonunda yol qəzası baş verib. Sürətlə hərəkət edən Nicat Məmmədovun idarə etdiyi "Mercedes" markalı maşın şəhərin mərkəzi küçələrindən birində-6 saylı məktəbin qarşısında hərəkətdə olan "VAZ 21 015" markalı avtomobili arxadan vurub. Qəza zamanı hər iki avtomobil tamamilə yararsız vəziyyətə düşüb. "VAZ 21 015"in sürücüsünün yüngül xəsarət aldığı bildirilir. Məmur oğlu rayonda avtoş kimi tanınır. Yerli polis hadisə yerində araşdırma aparır.

Qeyd edək ki, Nicat Məmmədov Bərdə rayon icra başçısının müavini İlham Məmmədovun oğludur. Hadisədən sonra o da postundan uzaqlaşdırıldı.

Psixoloqlar sübut ediblər ki, varlı uşaqlarını ümumiləşdirən bir neçə cəhət var. Hansı ölkədə yaşamalarından asılı olmayaraq, bütün varlı uşaqları özlərini həyatın mərkəzi hesab edirlər. Amma bununla paralel olaraq depressiyaya və özünü yükləməyə meylli olurlar. Narsizmi də bu siyahıya əlavə etmək lazımdır. Çünki onlar xarakterlərini guya ki, bu formada ifadə və sübut etməyə çalışırlar. Hətta bəziləri idmanda, elmdə və bəzi sahələrdə uğur nümayiş etdirsələr də, heç nədən razı qalmırlar.

Bu uşaqlardan ailələrinin də gözləntiləri böyükdür. Ailələri onları dünyanın ən yaxşı məktəbində oxumağa göndərir, hər şeyin ən keyfiyyətlisini, bahalısını alır, "olmaz" sözünü az qala gündəlik lüğətdən çıxarırlar. Amma bütün bunlar dost və sevgi əldə etməyə kifayət etmir. Varlı olmaq təkcə şampan içib, Chanel markalı geyimlər geyinmək deyil. Ekzotik səyahətlər, lüks və komfort da bu sözü yetərincə açmır.

Varlı olmaq eyni zamanda doymayan ruh, pik həddə çatmış eqolar, intriqalar, saxta dostluqlar da deməkdir. Daha çox qazanıb, hər zaman hər şeyin az olduğunu hiss etmək deməkdir, eyni zamanda. Hətta pul və gələcək qayğısının kasıblarınkından daha çox olması anlamına gəlir bu söz.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014

# Melkonyanın başı



Zamin HACI
zaminhaci@gmail.com

**Demokratiya olmayınca, cəbhə xəttinin hər iki üzündə xalqlar hakimiyyətə gəlməyincə, problemin həlli mümkün deyil. Parisdə Qarabağa aid növbəti toplantının nəticəsiz bitməsi bir daha bunu isbat elədi. Hamı bilir ki, ortada tərəflərin münaqişəni həll etmək üçün öz xalqlarından aldığı mandat yoxdur. Mandat yoxdursa, sən nəyə səs verə bilərsən? Heç nəyə. Bu uzun-uzadı görüşlər, danışıqlar da vaxt itkisi, millətləri yola verməkdir. Hər iki iqtidara, o cümlədən onların beynəlxalq havadarlarına sərf edən vəziyyətdir. Ona görə problem həllini tapmır.**

Yeri gəlmişkən, elə bu problem ortada olmasaydı Ollandın nəyinə gərək idi ucqar dövlətlərin rəhbərlərini Yelisey sarayına çağırıb onlara qonaqlıq versin? Demək problem bu tərəfdən də sərfəlidir. Yoxsa son illər özünə hörmət edən heç bir Qərb paytaxtı Qafqazın avtoritar liderlərini qonaq çağırmır.

Vaxtaşırı "bizim Qarabağ dərdimiz vardır" deyib ağlaşma qurmasaq, xaricə neftdən başqa nə ixrac edə bilərik? Neft və Qarabağ dərdi - ixracın iki əsas maddəsi bunlardır. Yanaşı yaşadıq, ermənilərdən bu tarixi xəstəliyi öyrəndik. İndi bizim də öz çoxəsrlik dərdimiz, ağlaşma predmetimiz var, bir sürü ağıçı-deputat-siyasətçi kişi və arvad xeylaqları bu dərdi yaylıq kimi dünyanın ora-burasına sərib zığıldaşırlar, arada kürü yaxmacından bir dişdəm almağı da unutmurlar. Bəs necə, dərd adamı qarınqulu eləyir! Psixoloji izahı da var. Bəzi psixi gərginlik anlarında insanlar əlinə nə keçsə yeyirmiş. Gördünüzmü? Korrupsiyamızın elmi əsasları da vardır. İstəməyənin gözünə girsin.

Hərçənd Paris danışıqları tam nəticəsiz də bitməyibdir. İlkin razılaşma olub ki, danışıqlar davam etdirilsin, növbəti ilkin razılaşmaya aid ilkin razılaşmalar alınsın. Bu söz oyunu, yanıltmac deyil, doğrudan durum belədir. Üstəlik, ABŞ Dövlət Departamenti ilkin razılaşmanı alqışlayıbdır, deyiblər nə yaxşı ilkin razılaşmadır, biz heç vaxt belə qəşəng ilkin razılaşma görməmişik. Hətta Departamentin mətbuat katibi Cenifer Psaki ilkin razılaşmadan riqqətə gələrək zır-zır ağlamışdır, Vaşinqtonun küçələrini su basmışdır. Arada üzünü də cırıb. Hətta müxbirlər olmasa tumanı başına keçirərmiş.

İlkin razılaşmanın bir bəndi lap unikaldır. Tərəflər razılığa gəliblər ki, Dağlıq Qarabağ müharibəsi zamanı itkin düşən şəxslər haqda məlumat mübadiləsi aparsınlar. Təsəvvür edirsinizmi? Atəşkəsdən 20 il keçir, dünyanın eşşək boyda 3 dövləti guya tərəflər arasında danışıqlar missiyası aparır, lakin itkinlər haqda informasiya mübadiləsi razılığı ancaq indi əldə olunur! Sizin missiyanıza, danışıqlarınıza Bernar Fasye ... *(Bilənlər söhbəti bilir, bilməyənlər də bilənlərə danışsın).* Belə çıxır ki, müharibə gedə-gedə Allahverdi bəyin, Seyid Əhədin erməni Valeri ilə danışıq aparıb itkin və girovları tapması, dəyişdirməsi mexanizmi ATƏT-dən etibarlı imiş.

Ümumiyyətlə, 21-ci əsrdə, camaatın Marsda koloniya qurmaq üzrə olduğu çağda Yerdə torpaq üstdə bir-birini qıran insanlara ciddi yanaşmaq lazım deyil. Bizim millət bu mənada münaqişənin damarını tutub. Hamı bilir ki, həm bu münaqişə, həm danışıqlar, həm yapistlərin "Qarabağ dərdi" böyük bir fırıldaqdan, lotuluqdan başqa heç nə deyil. O üzdən camaat da Qarabağ mövzusunda öz mövzularını yaradır, pul qazanır, şou qayırır və sairə.

Məsələn, 21 ildir bizdə əsas diskussiya mövzularından biri "Monte Melkonyanın başını kim kəsib" mövzusudur. İbad deyir mən kəsmişəm, Qubad deyir yox, mən kəsmişəm, hətta kinosu da var. Halbuki, Melkonyanın başı əvvəldən olsaydı Amerika, Fransa kimi dövlətləri atıb gəlib Qarabağda axmaq bir ideyanın qurbanına çevrilməzdi.

**Tənqid bütün dövrlərdə, bütün ölkələrdə sevilməyib. Xüsusilə də siyasətçilər, dövləti idarə edən məmur kontingenti tənqidə qarşı həssas və dözümsüzdür. Avtoritar ölkələrdə isə tənqid edənlə tənqid olunan arasında münasibətlər az qala düşmənçilik həddinə qədər yüksəlir. Təəssüf ki, Azərbaycan da avtoritar ölkələr siyahısındadır. Ona görə də illərdir media-siyasət arasında tənqidə, təftişə görə gərginlik hökm sürür.**

# Siyasətçilərimiz tənqidi niyə sevmir

"Adamdan soruşarlar ki, hörmətli lider, sayğıdəyər partiya sədri, funksioneri, səni illərlə müdafiə etdiyimə görə bir dəfə təşəkkür etmisənmi ki, indi bir köşəmə, bir açıqlamama, bir facebook statusuma görə məni orda-burda asıb-kəsirsən, danışdırmırsan, salamımı tərəddüdlə alırsan, bəzən isə ümumiyyətlə küsülü qalırsan?"



**Azər Ayxan:**
"Siyasətçinin tənqidə dözümsüzlüyü onun mədəniyyətinin aşağı olmasının göstəricisidir"



**Zahid Oruc:**
"Mətbuatla münasibətlərdə problemlər olanda bu konflikt ruhu cəmiyyətə daşınır"

Onsuz da bütün tərəflərdən üzünə qapı bağlanan, informasiya blokadasına salınan jurnalistlər üçün hakim düşərgə, eləcə də müxalifət cameəsi az qala "qapalı qutu"ya çevrilir. Siyasətçilərimiz, ictimai xadimlərimiz tənqidi demək olar ki, qəbul etmir, onu həzm etməkdə çətinlik çəkir. Ünvanına bir dəfə tənqid eşitdiyi media orqanını, onun nümayəndəsini az qala iqnor edir. Ən yumşaq halda "o nəydi, o gün yazmışdınız" tipli tənə, ən ağır variantda isə ümumən media nümayəndələri ilə ünsiyyəti kəsmək adi hallardan birinə çevrilib.

Tənqidə qarşı hansı düşərgə daha dözümlüdür? Siyasi tənqid bir mədəniyyət hadisəsidirsə, Azərbaycanın tanınmış şəxsləri bu mədəniyyətə nə dərəcədə sahibdilər?

**"Yeni Müsavat" qəzeti baş redaktorunun birinci müavini Azər Ayxan bildirdi ki, Azərbaycanda tənqidə dözümsüzlük məişətdən üzü siyasətə, dövlət idarəçiliyinə qədər uzanan bir prosesdir. Onun fikrincə, ümumən bizim xalq heç vaxt tənqidi sevməyib:** "Avtoritar ölkələrdə tənqid qorxulu məşğuliyyətdir. Bu cür ölkələrdə siyasi müxalifət də avtoritarlaşır, tənqidi yaxın buraxmır. Bir sözlə, hamı tərif eşitmək istəyir. Tənqidə dözümlülük isə sıfırın altında olur. Necə ki, hazırda bizim ölkədə belədir".

**A.Ayxan deyir ki, Azərbaycan müxalifəti də tənqidə qarşı dözümsüzdür:** "İqtidarımız kimi müxalifətimizdə də tənqidi sevmirlər. İqtidar öz tənqidçilərini əsasən "düşmən dəyirmanına su tökən antimilli ünsür" adlandırır, müxalifət isə bu kateqoriya insanlara "iqtidarın agenti", "hakimiyyətin gizli tapşırıqlarını yerinə yetirən şpion" damğası vurur. Bu mənada biz qəzetçilərin işi çox çətindir. Belə ki, iqtidarı tənqid edən qəzetlər ən yaxşı halda məhkəməyə verilib, bir neçə min manat cərimələnir. Ən pis halda isə... Ən pis halı zatən görə-görə gəlirik. Azərbaycanda tənqidə görə öldürülən, döyülən, şikəst edilən, mühacirətə getmək məcburiyyətində qalan, həbsxanada olan jurnalist var. Bu arzuolunmaz mühiti heç şübhəsiz ki, hazırkı iqtidar yaradıb".

**A.Ayxan dedi ki, iqtidarı tənqidə dözümsüzlüyə görə başa düşmək olar:** "Çünki bizim hakimiyyət demokratiyanı sevmir, tənqidə qarşı patoloji nifrəti var, avtoritardı. Bizi təəssüfləndirən ideya-siyasi baxımdan özümüzə yaxın, doğma bildiyimiz müxalifətin tənqidə hakimiyyətdəkilər qədər dözümsüz yanaşmalarıdır. Hətta facebook statusunda bir cümləni adama bağışlamır hörmətli müxalifət liderləri. O ki qalmışdı onların tənqidinə köşə həsr edəsən. Ağızlarını da açanda deyirlər ki, bizi onsuz da iqtidar sıxışdırır, bir yandan da siz üstümüzə gəlirsiniz. Əcaib məntiqdir; əgər iqtidar bunları təntidirsə, üstlərinə-üstlərinə gəlirsə, bu, müxalifəti tənqiddən sığortalamalıymış... Özünü demokrat adlandırmaq nədir, tənqidi qəbul etməmək nə? Axı bugünkü müxalifət sabahkı iqtidar deməkdir. Sən bugünkü siyasi statusunla tənqidə alışmırsansa, tənqiddən qıcıqlanıb qəzetləri, ayrı-ayrı jurnalistləri boykot edirsənsə, sabah hakimiyyətə gəldiyində biz qəzetçilərin halı-günü necə olacaq?! Bax, bu, bizi ciddi şəkildə narahat edir. Tənqidə dözümsüzlük mədəniyyətsizliyi ölkəmizi, cəmiyyətimizi ciddi şəkildə təhdid edir. Onun inkişafının qarşısını alır. Adamdan soruşarlar ki, hörmətli lider, sayğıdəyər partiya sədri, funksioneri, səni illərlə müdafiə etdiyimə görə bir dəfə təşəkkür etmisənmi ki, indi bir köşəmə, bir açıqlamama, bir facebook statusuma görə məni orda-burda asıb-kəsirsən, danışdırmırsan, salamımı tərəddüdlə alırsan, bəzən isə ümumiyyətlə küsülü qalırsan?"

**Azər Ayxan bildirdi ki, demokratik və ya qeyri-demokratik olsun, dünyanın heç bir ölkəsində jurnalistləri sevmirlər:** "Hətta jurnalistlər özləri belə onları tənqid edən həmkarlarını sevmirlər. Amma siyasətçilər, xüsusilə də hakimiyyətdə olan və hakimiyyətə iddia edən siyasi qüvvələr tənqidə, təftişə, açıq olmalı, dözümlü yanaşmalıdırlar. Tənqidçi qəzeti, jurnalisti məhkəmə repressiyasına məruz qoymaq, döydürmək və yaxud ona "filan məqaləni iqtidarın sifarişi ilə yazmısan" demək siyasi mədəniyyətin və elementar kültürün nə qədər aşağı olduğunun göstəricisidir".

Psixoloqlar bu fikirdədir ki, insanlara tənqid elə də xoş təsir bağışlamır. Hər nə qədər tənqidlərə qarşı açıq olduqlarını dilə gətirsələr də, hər insan tənqidin məzmunundan çox kimin onu tənqid etdiyinə fikir verir. Tənqid edəni özündən aşağı pillədə gördükdə isə tənqid mahiyyətini dəyişir. Belə olan halda deyilən sözlər insanın yaxşılığını istəməkdən çox onun qüsurlarını üzə vurmaq kimi qiymətləndirilir. Bu isə iki insan arasında olan münasibətin zədələnməsinə səbəb olur.

İnsanın tənqidlərdən inciməməsi, tənqidi sağlam bir şəkildə həzm etməsi, başa düşməsi üçün diqqətli olmaq lazımdır. Diqqət isə əksər insanlarda, ümumiyyətlə, olmayan bir keyfiyyətdir. Birinci şərt isə tənqidin gizli formada deyilməsidir. Aşkar, hər kəsin yanında insanı tənqid etmək onun utanmasına və sizə qarşı düşmən mövqeyinə keçməsinə səbəb olacaq ki, bu da münasibətin korlanmasına gətirib çıxaracaq: "Tənqid etməkdə məqsədimiz nədir? Birinci bunu aydınlaşdırmaq lazımdır. Biz həqiqətən də tənqid etdiyimiz insanın yaxşılığını istəyirik, yoxsa sadəcə, onu danlayırıq? Yaxşılığını istəyiriksə, tənqidimiz qətiyyən başqa insanların əhatəsində dilə gəlməməlidir. Təklikdə, ikilikdə olarkən tənqid etmək, irad bildirmək daha yaxşıdır".

**Deputat Zahid Oruc da bu məsələdə fərqli düşünür. Onun fikrincə, əgər söhbət siyasət adamından gedirsə, bu şəxs mütləq cəmiyyətlə münasibətlərini media qurumları vasitəsilə qurmalıdır:** "Başqa alternativ kommunikasiya vasitəsi yoxdur. Çox sevinmək lazımdır və mətbuata təşəkkür bildirilməlidir ki, hər hansı siyasi çıxışı, mövqeləri və sairi cəmiyyətə onlar vasitəsilə ötürürük. Əlaqələri dayandırmaq, hansısa media orqanını linç eləməyə çalışmaq effektli yol deyil. Mətbuatla münasibətlərdə problemlər olduğu halda, bu konflikt ruhu cəmiyyətə daşınır. Təcavüzkarlıq, inkarçılıq geniş yayılır".

**Z.Oruc bildirdi ki, son dövrlər dövlət strukturlarının cəmiyyətə açıqlığı, sıx təmaslar qurması daha çox qəbul olunur. Müsahibimizin sözlərinə görə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin media kapitanları ilə görüşündə də media ilə çalışan qurumlar tənqid olunmuşdu:** "Onlar istənilən məsələni məxfi sayıb da, hər hansı bir şəkildə cəmiyyətlə ünsiyyət qurmurlar. Son nəticədə isə şayiələr yayılır. Mən ötən dəfə də çıxışımda vurğuladım ki, sizin əleyhinizə etimadsızlıq yaradan məlumatlar dərc edilir.

Siyasətçilər, dövlət qurumları, nazirlər media ilə açıq olmalıdılar. Onların borcu və vəzifəsidir ki, cəmiyyəti məlumatlandırsınlar. Onların nə üçün ixtiyarı olmalıdır ki, özlərini qapalı qəsrdəki kimi aparsınlar, 5 il bu tribunanı zəlil edərək, cəmiyyətdən də özlərini təcrid etsinlər".

❑ Sevinc TELMANQIZI

# Bağlı qapılar arxasındakı Qarabağ həqiqətləri

## Paris danışıqlarının yekunlarına dair yeni detallar, ilkin və ilginc rəylər; Qərb münaqişə tərəflərinə təzə "Yol xəritəsi" təklif edib?

**Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə prezidentlər səviyyəsində aylardır edilən cəhdlər, nəhayət, nəticə verdi. Parisdə Azərbaycan və Ermənistan prezidentləri bu il üçün üçüncü dəfə, iki və çoxtərəfli formatda bir araya gəldilər. Yelisey Sarayında saatlarla müzakirə getdi.**

Ancaq hələ ki danışıqların təfərrüatları barədə çox az informasiya var. Çünki nə Azərbaycan və Ermənistan rəsmiləri, nə də Fransa tərəfi və vasitəçilər tərəfindən buna ciddi həvəs göstərildiyi müşahidə edilmir. Dəqiq olan yeganə odur ki, çoxsaatlıq müzakirələrin yekununda konkret sənəd və yaxud gözlənildiyi kimi, hansısa ortaq bəyanat qəbul edilməyib. Belə bir şey olsaydı, şübhəsiz ki, açıqlanardı.

Başqa bilgiyə görə, prezidentlərin növbəti görüşünü gələn ilin sentyabrında, BMT Baş Məclisi sessiyası çərçivəsində keçirmək haqda razılıq əldə olunub. Lakin bu, yetərincə böyük zaman kəsiyidir. Belədirsə, onda qənaət hasil olur ki, münaqişə tərəflərinin mövqeyini yaxınlaşdırmaq mümkün olmayıb. İkinci yandan, o vaxtadək Rusiya özü neçə belə görüş təşkil edib Qərbin planlarını poza bilər.

***

Bu arada Paris görüşlərinin bəzi ümumi və ümidverici detalları üzə çıxıb. Məsələn, "Frans Press" agentliyinə görüşün sonuna doğru prezidentlər arasında atmosferin xeyli istiləşdiyini yazıb. ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik isə Paris görüşlərini irəliyə doğru pozitiv addım saydığını bildirib.

Yelisey Sarayının mətbuat xidmətinin məlumatına görə, Paris sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentləri Beynəlxalq Qırmızı Xaçın himayəsi altında itkin düşənlərlə bağlı informasiya mübadiləsinə başlamaq haqda razılığa gəliblər. Fransua Olland həmçinin tərəfləri "danışıqlar yolu ilə, Minsk Qrupunun müəyyən etdiyi prinsiplər əsasında münaqişənin daimi həlli yönündə səyləri artırmağa" çağırıb, status-kvonun qəbuledilməz olduğunu söyləyib.

"Bundan əlavə, Fransa dövlətinin başçısı prezidentləri fikir ayrılıqlarını aradan qaldırmaq və öz xalqlarını sülhə hazırlamaq üçün siyasi iradə nümayiş etdirməyə səsləyib. İrəliyə hərəkət etmək üçün hərtərəfli sülh sazişi hazırlanmasına başlamağı təklif edib" - məlumatda qeyd edilir.

***

**"Parisdə Azərbaycan və Ermənistan prezidentləri arasında görüş konstruktiv, faydalı və səmimi keçib". Bunu isə Ermənistanın xarici işlər naziri Edvard Nalbəndyan deyib. Nalbəndyan daha sonra bildirib:** "Biz Fransa prezidenti Fransua Ollanda Parisdə prezidentlər səviyyəsində Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına həsr olunmuş görüşü təşkil etdiyinə görə minnətdarıq. Son üç ayda bu, artıq prezidentlərin Qarabağ münaqişəsinin nizamlanması məsələsi üzrə üçüncü görüşüdür və bu, onu göstərir ki, həmsədr ölkələr nizamlanma üzrə öz birgə səylərini sarsılmaz şəkildə davam etdirəcəklər".

Erməni nazirin sözlərinə görə, Paris görüşü zamanı münaqişənin nizamlanmasına dair çoxsaylı məsələlər müzakirə olunub, həmçinin Ollandın may ayında regiona səfəri zamanı təklif etdiyi və həmsədrlərin də bəyəndikləri etimadın möhkəmləndirilməsi üzrə tədbir keçirilib.



***

**"Qərb və Avropa Dağlıq Qarabağ məsələsinin həll olunmasında israrlıdır". Bu fikri axar.az-a NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov söyləyib. O, Qərbin Cənubi Qafqaz və Ermənistana yeni "Yol xəritəsi" təklif etdiyini deyib:** "Paris görüşündə də danışıqlar bu kontekstdə davam edib. Bağlı qapılar arxasında ciddi məsələlərin müzakirə olunduğu qaçılmazdır. Qərb Cənubi Qafqaz üçün yeni "Yol xəritəsi" təklif edir. Bu, son 20 ildə demək olar ki, region üçün ən böyük strategiyadır. "Yol xəritəsi"nə Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli, regionda demokratik proseslərin sürətlənməsi, Qafqazın NATO və Avropa ilə daha da yaxınlaşması daxildir. Paris görüşündə bir daha prezidentlərə Qərb və Avropanın bu strategiyası təqdim olunub".

**F.Məmmədov mühüm bir detala da toxunub. Sitat:** "Bizdə olan informasiyaya görə, bağlı qapılar arxasında bir neçə dövlətin diplomatları da iştirak edib. Bu şəxslər həmin "Yol xəritəsi"nin hazırlanmasında yaxından iştirak etmiş diplomatlardır. Onlar regionu, münaqişəni və orada gedən prosesləri yaxından izləyir. Bu yol xəritəsinin həyata keçməməsini istəyən tərəf isə Rusiyadır. Rus kəşfiyyatı bu haqda məlumat əldə etdikdən sonra Ermənistanda Sərkisyanla bağlı mitinqlərə start verildi. Bu o deməkdir ki, Avropa və Qərbin Cənubi Qafqaz üçün təklif etdiyi hər hansı sülh və inkişaf proqramına Rusiya etiraz edir. Moskvanın əlindəki ən böyük üstünlük isə Gümrüdəki hərbi bazadır. Lakin əgər proseslər bu cür davam edəcəksə, onda Qərb yaxın zamanlarda Cənubi Qafqazda özünün hərbi kontingentinin mövcud olması üçün hərəkətə keçəcək".

***

**Parisdəki bağlı qapalı Qarabağ danışıqlarına rusiyalı ekspertlərin baxışı da maraqlıdır. Məsələn, Lomonosov adına Moskva Dövlət Universitetinin İnformasiya-Analitik Mərkəzinin direktoru Andrey Petrova görə, Qarabağ danışıqlarının bu raundu tarixə ən örtülü danışıqlar kimi düşə bilər *("Vestnik Qafqaza")*:** "Müzakirələrin yekunu ilə bağlı nə prezidentlər, nə də danışıqların digər iştirakçıları heç bir açıqlama vermədilər. Prosesin gedişi haqda heç bir informasiyanın olmaması həm yaxşı, həm də pis işarə sayıla bilər. Zənnimcə, ötən müddətdə və artıq baş tutmuş iki əvvəlki görüşlər çərçivəsində tərəflərin predmetli danışıqlar aparması üçün aktual gündəm artıq formalaşıb. Bütün vasitəçilər nəhayət ki, sinxron şəkildə problemin hərtərəfli həllinə kömək üçün hazır olduqlarını bildiriblər. Onların arasında hətta fəallıq uğrunda bir yarış yaranıb. Yəni avqust ayında özünü dünyaya qanlı şəkildə xatırladan Qarabağ münaqişəsi beynəlxalq birliyin diqqət mərkəzinə gəlib. Bu da o deməkdir ki, əsl dialoq üçün bütün şərtlər mövcuddur və məsələ yalnız münaqişə tərəflərinin iradəsinə bağlı qalıb".

**Bu xüsusda ekspert Paris sükutunun "yaxşı əlamət" olduğu qənaətindədir:** "Doğrudur, oxşar susqunluğu keçənilki Vyana görüşündən sonra da görmüşük. Ancaq o zaman prezidentlər uzun fasilədən sonra bir araya gəlmişdilər. Başqa sözlə, təmas sırf sülh prosesi üçün konteksti yeniləmək cəhdi idi. Paris görüşü isə qeyd edilən aktual gündəmlə baş tutub. Eyni gündə iki və çoxtərəfli görüşlərin keçirilməsi əsasında qənaətə gəlmək olar ki, əvvəlki görüşlərdən fərqli olaraq, nəhayət, müəyyən tərəqqi əldə edilib - sadəcə, hələlik bizim bunu bilməyimiz tezdir".

**Lakin ekspertin fikrincə, susqunluğu əks anlamda qəbul eləmək də mümkündür:** "Bəli, düşünmək olar ki, Paris raundu da fikir mübadiləsi rejimində keçib və tərəflər konfliktin nizamlanmasına başlanması bir yana, heç əsaslı dialoqa doğru bir addım da yaxınlaşmayıb bu səbəbdən nə prezidentlərin, nə də vasitəçilərin deyəcəyi bir söz yoxdur. Lakin son aylar Qarabağ haqda danışılanların hamısı bir şeyi təsdiq edir ki, dünya bu konflikti "yada salıb" və artıq onun tezliklə bitməsini arzulayır".

****

Göründüyü kimi, Paris görüşlərinin yekunu haqda konkret və ortaq yanaşma hələ ki yoxdur. Müzakirələrin yeni detalları açıqlandıqca yəqin ki, siyasi rəylər və qənaətlər də cilalanacaq.

❑ **Siyasət şöbəsi**

# Tərəflərə savaş qadağası



**Azər RƏŞİDOĞLU**

**Parisdə Fransa prezidenti Fransua Olland Azərbaycan və Ermənistanın dövlət başçıları ilə görüşüb. Görüşdə ATƏT-in Minsk Qrupunun həmsədrləri də iştirak ediblər.**

Bu görüşdən əvvəl Olland İ.Əliyev və S.Sarkisyanla təkbətək görüşüb.

Görüş zamanı Fransa prezidenti tərəflər arasında gərginliyin səmərəli şəkildə azaldılmasının vacibliyini qeyd edib. Olland Azərbaycan və Ermənistan prezidentlərini beynəlxalq hüquq prinsiplərinə və Minsk Qrupunun həmsədrləri tərəfindən müəyyən edilmiş prinsiplərə uyğun olaraq Dağlıq Qarabağ münaqişəsinin davamlı şəkildə nizamlanması üzrə danışıqlarda öz səylərini artırmağa çağırıb. O, həmçinin status-kvonun yolverilməz olduğunu da vurğulayıb.

Olland Azərbaycan və Ermənistan prezidentlərini fikir ayrılıqlarının aradan qaldırılmasına və öz əhalisini sülhə hazırlamaq üçün vacib olan siyasi iradə nümayiş etdirməyə çağırıb.

Xatırladılır ki, may ayında Olland Cənubi Qafqaza səfəri zamanı ATƏT-in Minsk Qrupunun həmsədri kimi Fransanın atəşkəs rejiminin qüvvəyə minməsindən 20 il sonra bu münaqişənin sülh yolu ilə həllinin axtarışı üçün vasitəçiliyini davam etdirməyə sadiqliyini təsdiqləyib. Olland iki tərəf arasında qoşunların təmas xəttində gərginliyin səmərəli şəkildə azaldılmasının vacibliyini də qeyd edib.

Münaqişəni "ölü nöqtə"dən tərpətmək üçün Olland hərtərəfli sülh sazişinin hazırlanmasına başlamağı təklif edib.

Azərbaycan və Ermənistan prezidentləri 2015-ci ilin sentyabrında Nyu-Yorkda BMT Baş Assambleyasının sessiyası çərçivəsində dialoqun davam etdirilməsi barədə razılığa gəliblər.

Paris görüşünün böyük dəyişikliklərə səbəb olacağını ehtimal etmək çətindir. Ümumiyyətlə, son 20 ildə Qarabağın qaytarılması istiqamətində heç bir əməli addım atılmayıb. Elə bircə bu fakta görə Paris görüşünə inamsız yanaşmaq tam məntiqidir.

Fransa prezidenti açıq şəkildə nümayiş etdirdi ki, Qərb heç bir halda Qarabağ savaşının yenidən alovlanmasına imkan vermək istəmir. Odur ki, indidən bu problemi həll etmək və savaş variantını bir dəfəlik gündəlikdən çıxartmaq arzusundadırlar. Paris və yaxud digər demokratiya paytaxtlarında keçirilən görüşlərə böyük ümid bəsləmək də müsbət heç nə vəd etmir. Hər ötən il Qarabağı bizdən daha da uzaqlaşdırır. Əslində, bu kurs da elə buna hesablanıb.

Azərbaycan diplomatiyasının şəriətsizliyi ona gətirib çıxartdı ki, hətta yeganə strateji müttəfiqimiz Türkiyə də Qarabağ problemi barədə danışmaq belə istəmir. Son 20 il Azərbaycan diplomatiyası üçün itirilmiş illər oldu. Artıq bu problem həll olunmaz həddə çatıb. İctimai rəy mövcud iqtidarla Qarabağı qaytarmağın mümkünlüyünə inanmır.

Burada ən maraqlı məqam ondan ibarətdir ki, son vaxtlar ABŞ-la Rusiyanın münasibətlərinin pisləşməsi Dağlıq Qarabağ probleminin həllinə inamı azaldıb. Əvvəllər heç olmasa, Dağlıq Qarabağ probleminin həllində ABŞ-la Rusiyanın mövqeləri uyğun idi. İndi Rusiyanın Azərbaycana da, Ermənistana da münasibətdə fəallığı artıb.

Rusiya heç bir halda Qarabağ münaqişəsini həll etməkdə maraqlı görünmür. Yaranmış vəziyyətdə xalqın öz gücünə inanması və Qarabağ məsələsində daha prinsipial mövqe tutması arzu olunandır. Qərb və yaxud Rusiyadan Qarabağ probleminin həlli istiqamətində bizə yardım edəcəyini gözləmək sadəlövhlük olardı. Yenə də çıxış yolu xalqın özünə qalır...

**Oktyabrın 26-dan Hicri-Qəməri təqvimi ilə Məhərrəm ayı başlayıb. Məhərrəm İslam təqvimində ilin ilk ayıdır. İslam dini mətnləri Qəməri təqviminə əsasən qeyd olunduğu üçün hazırda istifadə etdiyimiz Günəş (Miladi) təqvimi ilə müqayisədə o, hər il təxminən 10 gün geri çəkilir. Məhərrəm ayı Qəməri təqviminə görə ilin ilk ayı və haram elan olunmuş 4 aydan biridir. İslam hökmlərinə görə, bu ayda savaşmaq, qan tökmək qadağan (haram) edilib.**

# Nə üçün Məhərrəm ayı?

## İslam təqviminin qanlı və şərəfli səhifəsi haqda bəzi qeydlər...

Məhərrəm ayı İslamaqədərki və İslamın gəlişindən sonra bir sıra əlamətdar hadisələrlə zəngindir. O cümlədən Adəm peyğəmbərin xəlq olunması, İbrahim peyğəmbərin doğulması, Adəmin tövbəsinin Allah tərəfindən qəbulu, Musa peyğəmbərin yəhudiləri Firondan xilas edərək Misirdən çıxarması və Qiyamət gününün bu ayda baş verəcəyi ilə bağlı xəbərlər var. Ancaq heç şübhəsiz, bu ayın əsas hadisəsi hicrətin 61-ci ili (Miladi təqvimlə 680-ci il) İraqın Kərbəla çölündə baş verən qanlı hadisələrlə bağlıdır.

İslam Peyğəmbəri həzrət Məhəmmədin (s.ə.s.) nəvəsi, 1-ci İmam Əlinin (ə) və Həzrət Fatimənin oğlu İmam Hüseyn (ə) ailə üzvləri və 72 nəfər tərəfdarı ilə birlikdə Kərbəla çölündə Məhərrəm ayının 10-cu günü (ərəbcə "əşərə", "aşura") qətlə yetirilməsi hadisəsidir.

Peyğəmbər (s.ə.s) ailəsinin - "Əhli Beyt"in üzvü olan İmam Hüseynin (ə) şəhadəti bir məzhəb hadisəsi deyil, haqla-batil savaşı idi. İslam dininin gəlişi ilə əsası qoyulmuş ədalətli və ilahi qanunlara əsaslanan sistemin sülalə hakimiyyəti və klassik orta əsr hakimiyyəti ilə əvəzlənməsi prosesinin kulminasiya nöqtəsi Həzrət Hüseynin (ə) şəhid olduğu Kərbəla - Aşura hadisəsi idi. Çünki Həzrət Hüseynin (ə) etiraz etdiyi, qarşı çıxdığı Yezid ibn Müaviyənin hakimiyyətə gəlməsi və əməvi sülaləsinin xilafətə sahib olması bu dövrdən başladı.

İmam Hüseyn (ə) bir inqilabçı, üsyançı deyil, özünün də dəfələrlə dediyi kimi, islahatçı, insanları doğruya dəvət edən, pisliklərdən çəkindirən və nəhayət, bu yolda öz həyatını və ən yaxınlarını qurban verən bir əzabkeş idi.

İmam Hüseyn hicrətin 4-cü (Miladi 626-cı il) ili, Şaban ayının 3-də Mədinə şəhərində dünyaya gəlib. Hüseyn (ə) İmam Əlinin (ə) İmam Həsəndən (ə) sonra dünyaya gəlmiş ikinci övladıdır. Rəvayətə görə, İslam Peyğəmbəri (s) Hüseyni çox sevib əzizləyərmiş. Bununla bağlı bir sıra hədislər var: **"Hüseyn məndən, mən də Hüseyndənəm. Hər kim Həsən və Hüseyni sevsə, məni sevib. Hər kəs onlarla düşmənçilik etsə, mənimlə düşmənçilik edib".**

İmam Hüseyn (ə) "Əhli-Beyt"in üzvüdür. Məşhur rəvayətə görə, İslam Peyğəmbəri (s) qızı Fatimə, kürəkəni Əli (ə) və nəvələri Həsən və Hüseyninin "Əhli-Beyt"dən olduğunu bildirib. İmam Hüseyn (ə) 3-cü imamdır. Qardaşı İmam Həsəndən (ə) sonra müsəlmanların rəhbəri (imam) olub. İmam Hüseyn (ə) İmam Əli ailəsinin üzvü kimi ilahi elmə, yüksək əxlaqi dəyərlərə sahib insan olub. O, bir alim olmaqla yanaşı, atasının yaxın köməkçisi kimi onunla birgə döyüşlərdə iştirak edib.



**"Hüseyn məndəndir, Mən də Hüseyndən..." (İslam Peyğəmbəri (s))**

Hicri 60-cı ildə Şam valisi Müaviyyə ölür. Onu hakimiyyətdə İslam tarixində ilk dəfə olaraq təbii varisi, oğlu Yezid əvəz edir. Bu, İslam qanunlarına zidd idi. Digər tərəfdən, hakimiyyəti zorla zəbt etmiş Müaviyə onu oğluna və ya bir başqa adama ötürməyəcəyi ilə bağlı İmam Həsən (ə) qarşısında götürdüyü öhdəliyi pozmuşdu. Ən pisi də o idi ki, Müaviyənin hakimiyyəti ötürdüyü oğlu Yezid dini və siyasi hakimiyyəti özündə birləşdirən xəlifə postuna yaramırdı. Bununla yanaşı, özündən əvvəl bu postda olmuş insanlara da heç bir keyfiyyəti ilə yaxın deyildi. Bunu o zamankı İslam öncülləri, səhabələr də bilirdi. İmam Hüseyn (ə) Yezidin hakimiyyətə gəlməsini İslam üçün belə adlandırırdı: **"Əgər Yezid kimi bir adam ümmətə rəhbərliyi ələ alsa, onda İslamın fatihəsini oxumaq, matəm saxlamaq lazımdır".**

Yezidin hakimiyyətini leqallaşdırmaq üçün nüfuzlu səhabələrin, ilk növbədə isə İmam Hüseynin (ə) beyəti (təsdiqi) olmalı idi. Buna görə də Şam sarayından Mədinəyə göstəriş gəlir ki, İmam Hüseyndən beyət alınsın, əks təqdirdə, qətlə yetirilsin. Bu zaman Həcc mövsümü olduğu üçün İmam Hüseyn Məkkəyə gedir və orada Yezid hakimiyyətinin qeyri-qanuni olduğu haqda çıxışlar edir. Məkkədən də İslam xilafətinin paytaxtı Kufəyə yola düşür.

**İmam Hüseynin savaşının məqsədi**

Kərbəla çölündə hökumət qoşunları İmam Hüseyn (ə) və 72 tərəfdarından ibarət qrupu mühasirəyə alır. İmam tərəfdarları 10 gün davam edən mühasirənin 3 gününü susuz qalır. Nəhayət, Məhərrəm ayının 10-da Kufə valisinin qoşunları hücum edərək İmam Hüseyni (ə) iki oğlu, qardaşı, qardaşı oğlu, bacısı oğlanları da daxil olmaqla, 72 tərəfdarı ilə birlikdə şəhid edir. Kərbəla şəhidlərinin kəsilmiş başları əsir götürülmüş ailə üzvləri ilə birlikdə Kufəyə, sonra isə şəhərləri gəzdirməklə Dəməşqə aparılır...

***

İmam Hüseyn (ə) hərəkatı dini dəyərləri şəxsi maraqları və dünya istəklərinə tabe etməyə çalışanların İslam dininin əsaslarını sarsıtmasının qarşısını aldı. İmam Hüseyn hərəkatı "bizi idarə edənlər haqlıdır, onlara tabe olmaq ilahi vəzifədir" kimi süst ideyalara ciddi zərbə olub, İslamda böyük bir müqavimət məktəbinin əsasını qoydu. İmam Hüseyn (ə) öz həyatını nümunə kimi göstərdi ki, haqq uğrunda savaşmaq ən böyük şərəfdir, hətta bütün dünya sənə qarşı dayansa belə.

Hicri Məhərrəm ayının 10-da baş verənlər İslam tarixində dönüş nöqtəsi sayılır. Alimlər Aşura əzadarlığını nəzəri olaraq iki hissəyə bölür. Birinci hissə daha çox zahiri əlamətlərlə seçilən və müsəlman ölkələri folklorunun əsasını təşkil edən mərsiyə, növhə, qəsidə kimi yaradıcılıq nümunələri, şəbih teatrları da daxil olmaqla, əzadarlıq mərasimlərini əhatə edir.

İkinci əsas hissə isə Aşuranın fəlsəfi mahiyyətidir ki, birinci hissə də məhz buna xidmət edir. Hər il müsəlmanlar heç bir çağırış, dəvət olmadan ilin müəyyən ayında əzadarlıq mərasimlərinə qoşulur, dünyada az hallarda rast gələnən həmrəylik, yaxınlaşma olur. Müsəlmanları Məhərrəm ayında Hüseyn acısı, Kərbəla çölündə tənha, susuz qalan, əzizlərini itirən, əzabla öldürülən 3-cü İmamın acısı bir araya gətirir.

Amma Məhərrəm ayı təkcə yas saxlamaq üçün yox, Hüseyni (ə) dərk etmək, onun uğrunda fəda olduğu dəyərləri xatırlayıb diri saxlamaq üçün qeyd olunur.

Aşura ərəblərin cahiliyyə dövründə rəsmi bayram günləri idi. Həmin gün xalq şənlik keçirirdi. İranda Novruz günü bayram günü hesab edildiyi kimi, ərəblər arasında da Aşura, tarixi bayram günü və ayrı-ayrı ərəb qəbilələrinin bir-birinin görüşünə getdiyi gün kimi qeyd olunurdu.

Ancaq hicri 61-ci ildən sonra Məhərrəm ayı təqvimdə xüsusi yer aldı. İlk olaraq İmam Hüseyn (ə) ailəsi, daha sonra Kufə müsəlmanları Kərbəlada matəm mərasimlərini keçirməyə başladılar. Təxminən 200 il sonra Misirdə Fatimilər Aşura gününü matəm günü elan etdi. Fatimilərin dövründə Misirdə Aşura rəsmi əza və matəm günü olaraq qalırdı. İbn Kəsir yazır ki, hicrətin təxminən 400-cü ilində Bağdadda Aşura günü milli matəm günü elan olundu, xalq Hüseynin susuzluğunu nəzərə alıb küçələrdə soyuq su və şərbət qoyub susuzlara paylayırdı. İraq əhalisi də Aşura günündə Peyğəmbərin (s) vəfat etdiyi günün ildönümündə olduğu kimi əzadar idi.

Sonrakı illərdə, hətta Əməvilər dövründə sərt qadağalara baxmayaraq hər il on minlərlə insan Məhərrəm ayını matəm, hüzn mərasimi kimi qeyd edib. Hər il Məhərrəmin 10-cu günü əzadarlıq mərasimləri təşkil olunur, Kərbəla şəhidləri yad edilir. Müsəlman ölkələrində böyük bir mədəni irsə çevrilən növhə, mərsiyə yazılı ədəbiyyatı və şəbih tamaşalarının ilham qaynağı Aşura idi.

Ancaq təəssüf ki, ötən müddətdə digər dini mövzularda olduğu kimi, Aşura hadisəsinin qeyd olunmasında da ifrata varmalar baş verib. Aşura hadisəsini əfsanələşdirən, onun mahiyyətini bəzən təhrif edən hekayə və əhvalatlar meydana çıxıb. Bəzi müsəlmanlar məhərrəmlik ayinlərində baş yarmaq, qan çıxarmaq kimi adətlərdən istifadə edib. Bütün bunlar fərqli yozumlara səbəb olsa da, bütövlükdə təhriflərə, qadağalara baxmayaraq Kərbəla olaylarını unutdurmaq mümkün olmayıb.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Təbrizdə Aşura günü gördüklərim



**Elşad MƏMMƏDLİ**
elshad1978@mail.ru

**Facebookda "dolaşarkən" dinə münasibəti normal olmayan dostlardan birinin profilində ürəkbulandırıcı foto (bəlkə də fotoşop) rastıma çıxdı; ağ, kəfənə bənzər libasda, əllərində qılınc, xəncər, baş-gözü al qanın içində olan adamlar idi. Şəkilin altında isə yazılmışdı ki, foto ötənlərdə Aşura günündə Təbrizdə çəkilib. Küçədə çəkilən həmin şəklə diqqətlə baxdım, bu şəhər Təbrizə bənzəmirdi. Təbrizdə olarkən şəhəri az qala qarış-qarış dolaşıb, bu tarixi diyarımızı beynimə həkk etmişəm. Fotoda Təbrizin arxitekturasına aid bir element də yox idi...**

Bəri başdan qeyd edim ki, dindar, dini fanat deyiləm. Kafir də deyiləm, Allahımı, Quranımı, Peyğəmbərimi (s.ə.s.), tanıyıram, qəbul edirəm. Yəni ölkəmizin 80 faizi necə müsəlmandırsa, mən də müsəlmanam. Amma bir məsələyə dair şahidi olduğum məqamı deməliyəm; Məhərrəmlik ayı başlayıb, çoxları özlərini qanına qəltan etmiş adamların şəkillərini paylaşıb bunun Təbrizdə baş verdiyini yazırlar. Hansı ki, həmin şəkil qeyd etdiyim kimi, Təbrizə aid deyil! Görünür, biriləri hansısa cəhaləti məhz Təbrizin ayağına yazıb bu şəhər və oradakı soydaşlarımız haqda mənfi fikir formalaşdırmağa çalışırlar.

İkincisi fakt; Təbrizdə Aşurada ağ kəfənə bənzər libas yox, qara və yaşıl paltar geyinirlər. 2011-ci ildə müalicə üçün Təbrizdə olanda təsadüfdən Aşura günü də orada qaldım. Tasua və Aşura günlərində Təbrizdə iş günü deyil, bu səbəbdən həmin günlərdə bəlli mərasimlərin burada necə keçirildiyini izləmək üçün fürsət bulmuşdum. Yeri gəlmişkən, Təbrizə həmkarım Kənan Rövşənoğlu ilə birgə yollanmışdıq; o, reportaj hazırlamağa getmişdi, mən də müalicəyə.

Kənanla və Təbrizdəki dostumuz Nəhmət bəylə birlikdə Tasua və Aşura günlərində bütün günü küçələrdə olduq. Mənim üçün çox maraqlı idi bu mərasimi izləmək; təxminən 1 sutka ərzində, Aşura günü hətta gecə yarıyadək müxtəlif ünvanlarda keçirilən mərasimləri müşahidə etdim. Təbrizdə bir nəfər də olsun özünü qılınclamadı, başını yarmadı, sinəsini çərtmədi, qan tökmədi. Əksinə, Təbrizdə Aşura günündə imkansızlara sədəqə yığılması adətini gördüm, bu çox xoşuma gəlmişdi. Həmin gün onsuz da xüsusi mehribanlığı ilə seçilən Təbriz camaatı daha da mehriban olur, qəzəbli, aqressiv yox, humanist davranışlar sərgiləyir. Orada Aşura günü sadəcə məscidlərdə, xüsusi ilə Təbriz bazarında və küçələrdə əzadarlıq, yürüş edirlər, mərsiyə deyirlər və sair; zorakılıq, qan əlamətləri olmur.

Hə, bir də Təbrizdə məscidlərin qarşısında, müxtəlif yerlərdə şam toplanır; hər kəs imkanı çatan qədər şam alır və onu sədəqə şəklində şam toplanan məkanlara təhvil verir. Bunun anlamı ilə maraqlandım, bəlli oldu ki, ta qədimlərdən burada yığılan şamları ilboyu satıb kasıblara paylayırlar. Keçmişdə, şamın baha olduğu vaxtlarda isə Aşurada toplanan şamları kasıblara verərmişlər ki, onların da evi işıqlı olsun...

İkinci maraqlı ənənə isə kişilərin qol-qola, osmanlı türkləri demiş, omuz-omuza dayanaraq böyük dairə düzəldib xüsusi ayaq hərəkətləri ilə dövrə vurmalarıdır. İnsanlar sanki bununla mehribanlaşır, daha yaxın olurlar...

Küçələrdə isə imkanlılar kasıblar üçün pulsuz qida məhsulları, xurma, hazır yeməklər paylayırlar. Təbrizə əyalətlərdən gəlmiş insanlar bu ərzaq mallarını daha çox götürürlər...

Aşura günü əksər avtobuslar pulsuz işləyir. Bəzi taksilər də təmənnasız xidmət göstərirlər...

Düzü, Aşura mərasimini izləmək və bu zaman müşahidə etdiklərim içimdə xoş təəssürat yaratmışdı Təbrizdə...

Bu yazını Təbrizdə Aşura mərasiminin nə cür keçirilməsindən xəbəri olmayan insanların kimlərinsə fitvasına, yalanına inanmaması üçün yazmağı borc bildim...

Mümkündür ve bu faktlar da var ki, haradasa hansısa başdan xarablar qan tökür, başını qılınclayır və sair. Amma əmin olun ki, bunun Təbrizə və oradakı soydaşlarımıza heç bir aidiyyəti yoxdur.



# Parlamentdə Kəlbəcər girovları ilə bağlı şok təşəbbüs

## İqbal Ağazadə Kəlbəcər girovlarına vəkillik üçün Xankəndinə getmək istədiyini bəyan edib Milli Məclis rəhbərliyindən dəstək istədi

**Milli Məclisin spiker Oqtay Əsədovun sədrliyi ilə oktyabrın 28-də keçirilən tarixli plenar iclası da mübahisəsiz ötüşmədi. Cari məsələlərə həsr olunmuş vaxt ərzində isə deputatlar əsasən Kəlbəcərdə girov götürülən və öz yurdlarını ziyarətə getdikləri üçün Xankəndində saxta rejim tərəfindən "mühakimə" olunan Dilqəm Əsgərovla Şahbaz Quliyevin xilas yolları barədə danışdılar. Deputat Siyavuş Novruzov Ukraynada keçirilən parlament seçkilərdən danışdı və ikili standartlara etiraz etdi: "Seçkinin mürəkkəbi qurumamış ABŞ tərəfindən bəyanat verilir ki, azad, ədalətli, demokratik seçki keçirilib.**

Bildirilir ki, biz Krım məsələsini Ukraynanın xeyrinə həll etməyə çalışacağıq. 20 ildir Minsk Qrupu həmsədri olan ölkə bir dəfə deməyib ki, Dağlıq Qarabağ məsələsini Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etməyə çalışacaq".

Növbəti çıxışlar əsasən Kəlbəcərdən olan iki girovun, Dilqəm Əsgərov və Şahbaz Quliyevin Xankəndində keçirilən məhkəməsinə həsr olundu.

**Aydın Mirzəzadə isə girov kəlbəcərlilərdən danışaraq dedi ki, bu, çox pis təşkil edilmiş teatr tamaşasını xatırladır:** "Öz dədə-baba yurdunu ziyarət edənlər üzərində saxta tamaşa hazırlanıb. İndidən erməni KİV-ləri guya onların öz günahlarını etiraf etdiyi barədə saxta məlumat yayıb. Ermənistan iki Azərbaycan vətəndaşını öz ərazisində girov götürüb saxta məhkəmə qurur, amma həmsədrlər buna biganədir. İstərdim ABŞ, Rusiya və Fransa bu saxta tamaşanın dərhal dayandırılmasını tələb etsin".

**Fərəc Quliyev** A.Mirzəzadənin çıxışına dəstək verərək dedi ki, ermənilər Dağlıq Qarabağı tanıtdırmaq üçün məhkəmə şousundan istifadə etməyə çalışır.

**Deputat "Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi" ifadəsini doğru saymadı və bildirdi ki, bunu Ermənistan-Azərbaycan münaqişəsi kimi səsləndirmək lazımdır:** "İrəvan belə bəhanələrlə Dağlıq Qarabağ nümayəndəsini də tərəf kimi təqdim etməyə çalışır. Bu ifadə birmənalı şəkildə götürülməlidir ki, bizə zərər gəlməsin".

**Zahid Oruc İdarəçilik Akademiyasında administrasiya rəhbəri Ramiz Mehdiyevin çıxışını müdafiə etdi:** "Biz Milli Məclis olaraq təhlil etməliyik ki, niyə cənub bölgəsində qızların 80 faizi təhsil almır, yaxud şimal bölgəsindəki problemlərimizin kökündə nə dayanır? Təhlil etməliyik ki, niyə 20-ci əsrin əvvəllərində Sevilin timsalında Azərbaycan qadını

### Hacı Qalib bələdiyyə seçkiləri ilə bağlı ilginc sirr açdı

çadranı atdı, amma bu gün Azərbaycan qadını müxtəlif libaslara bürünmək istəyir?" Z.Oruc Təhsil Nazirliyi, TQDK və digər təsisatları dəvət etməyə və parlamentdə müzakirələr aparmağa çağırdı.

Fazil Mustafa da girovlarla bağlı müdafiə təşəbbüsünü dəstəklədi. Deputat vəkil Bəhruz Bayramovun Xankəndinə gedib girovları müdafiə etməyə hazır olduğunu vurğuladı və vəkilə dəstək verdi. Onu da dedi ki, Rusiyada və Avropada olan bir sıra hüquq müdafiəçilərini dövlət səviyyəsində dəstəkləyib ora göndərə bilərik. F.Mustafa şəhidlərin ailəsinə çatası "qanpulu"nun verilməsi məsələsində əngəllərin olmasına da diqqət çəkdi. "Yetimin, şəhidin, itkin düşənin" 11 min manat pulunu sahibinə verməyə çağırış etdi.

Leyla Abdullayeva ölkədə "oğru dünyası"nın nümayəndələrinin geniş şəkildə təbliğ olunduğunu, onlarla bağlı mahnılar, kitablar yazıldığını, kliplərin, filmlərin çəkildiyini dedi. Bu mənada spirtli içkilər və siqaretlə bağlı tətbiq olunan yaş senzinin bu məsələyə də tətbiqini zəruri saydı.

Musa Quliyev ezamiyyətə gedənlərin tibbi sığortası barədə danışdı. Xaricə rəsmi ezamiyyətə gedən şəxslərin tibbi sığortasını təmin etməklə bağlı təklif verdi.

**Qənirə Paşayeva da azərbaycanlı girovlarla bağlı danışdı.** "Çox təəssüf ki, nə ATƏT-in Minsk Qrupu, nə beynəlxalq təşkilatlar bu məsələyə ciddi diqqət yetirmirlər. Biz görürük ki, bizim girovlarla necə rəftar edilir. Bu məsələni mütləq Avropa İnsan Haqları Məhkəməsinə və Avropa İşgəncələr Əleyhinə Komitəyə aparmaq lazımdır. Ona görə də bu şəxslərin ailələrinə ciddi dəstək olmaq gərəkdir" deyə Q.Paşayeva bildirib. Xanım deputat "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsini də parlament müzakirəsinə çıxarmağı təklif etdi.

**İqbal Ağazadə dedi ki, kəlbəcərli girovların durumu onu da ciddi şəkildə narahat edir:** "Onların vəkillə təmin olunmasını düşünməliyik. Başqa ölkələrdə olanda Azərbaycanın sıravi vəkilləri proseslərdə iştirak edirlər. Mən böyük məmnuniyyətlə onların hüquqlarını müdafiə etməyə hazıram. Bir millət vəkili, partiya sədri kimi prosesdə iştiraka böyük məmnuniyyətlə hazıram. Məhz Dağlıq Qarabağda keçirilən qeyri-qanuni məhkəmə prosesində bu, çox ciddi addım olardı. Xahiş edirəm Milli Məclis mənə nə kömək mümkünsə, etsin".

**Bahar Muradova da girov vətəndaşlarımızla bağlı narahatlığını bölüşdü:** "Mən qondarma bir qurumun qondarma hüquq sisteminin təmsilçilərinin Azərbaycan vətəndaşlarının öz evlərinə getməsini ərazi bütövlüyünü pozması, onlar üzərində məhkəmə prosesi qurması faktına etiraz etməyi düşünürəm. Bizim ümumi mövqeyimizə xələl gətirə biləcək fikirlər səsləndirməkdən uzaq olmalıyıq. Hər hansı hüquqşünas və deputat həmkarımızın belə o prosesdə iştirakını qeyri-məqbul sayıram. Bu, hüquqi mexanizm deyil, bu, Dağlıq Qarabağ rejimini tanımaq deməkdir. Qətiyyən orda iştirak etmək olmaz! Amma bizim hüquqşünaslarımız beynəlxalq hüquq-müdafiə təşkilatlarını bu prosesə cəlb etməlidir. Bizim Milli Məclis üzvlərinin qondarma rejimin qondarma rejimini tanımaq istiqamətində səsləndirdiyi fikirləri qətiyyən müdafiə etmirəm".



### Bahar Muradova: "Bu, Dağlıq Qarabağ rejimini tanımaq deməkdir; qətiyyən orda iştirak etmək olmaz!"

**Spiker Oqtay Əsədov Ukraynada keçirilən seçkilərlə bağlı mövqeyini bölüşdü:** "Seçkinin mürəkkəbi qurumamış ABŞ və Böyük Britaniyanın mövqe bildirməsi aydındır. Bunun səbəbləri var. Baxırlar ki, Azərbaycan kiçik dövlətdir, amma inkişaf edir. Deyirlər, "dur bizim yanımızda". Azərbaycan isə ikitərəfli münasibət qurmaq istəyir, bunu isə qəbul etmirlər".

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı Milli Məclis Azərbaycan və Bosniya-Hersoqovina parlamentlərarası işçi qrupunun rəhbərinin dəyişdirilməsi barədə qərar verdi. Dövlət vəzifəsinə təyinatı ilə əlaqədar Mübariz Qurbanlının deputat mandatı ləğv edildiyi üçün onu Gülçöhrə Məmmədova əvəzlədi.

Növbəti məsələnin müzakirəsi zamanı çıxış edən deputat Zahid Oruc vətəndaşları narahat edən bir sıra problemlərdən bəhs etdi.

**Onun çıxışı isə spiker Oqtay Əsədovu narazı saldı:** "Zahid Oruc, mən heç kimin xətrinə dəymək istəmirəm. Amma tamam başqa məsələ müzakirə olunurdu. Biz burda Ali Məhkəmə deyilik".

Z.Orucun yerdən məsələyə aydınlıq gətirmək istəməsinin qarşılığında isə spiker "Sən fikrini dedin, mən qulaq asdım, indi sən də qulaq as" - deyə, reaksiya verib. Z.Oruc onsuz da çıxışa yazılıb, məsələyə reaksiya verəcəyini deyəndə spiker sərt şəkildə "Mən də sənə söz verməyəcəyəm, sən də heç nə deyə bilməyəcəksən" -deyə cavab verdi. Deputat yerdən reaksiya verib Milli Məclisin bütün ideyalar üçün açıq olduğunu desə də, spiker "Söz güləşdirmə! Görürəm, sənin çox güclü ideyaların var. Yerdən danışma!" deyərək növbəti məsələyə keçdi.

### Polisə elektroşokdan istifadə icazəsi verildi

Milli Məclis "Polis haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan layihəni müzakirə etdi. Qanuna edilən dəyişikliyə əsasən polislərə elektroşok vasitələri saxlamaq, gəzdirmək və qanunvericilikdə nəzərdə tutulan hallarda təyinatı üzrə istifadə etmək hüququ verilir. Elektroşok vasitələrini saxlamaq, gəzdirmək və təyinatı üzrə istifadə etmək hüququ olan polis orqanlarının vəzifəli şəxslərinin siyahısı isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Deputat Musa Qasımlı polisin gözdən salınmasına yol verməməyə çağırdı:** "Bu gün bəzi mətbuat orqanlarında polisimizi gözdən salan yazıların verilməsini bəzi mərkəzlərdən gələn sifarişin məntiqi nəticəsi sayıram. Çünki polis dövlətin bel sütunudur".

**Çingiz Qənizadə dedi ki, iclasdan öncə bəzi mətbuat orqanları vahimə yaradan suallarla müraciət ediblər:** "Qanunda var ki, xüsusi icazəsi olan polis əməkdaşları elektroşok gəzdirəcək, yəni bütün polislər gəzdirə bilməyəcək və bütün hallarda polis elektroşokdan istifadə edə bilməyəcək. Bu halda polis nə etsin? Məsələn, silahdan istifadə edəcək, digər vətəndaşlar zərər çəkəcək. Cinayəti törədən şəxslərin zərərsizləşdirilməsində polisin elektroşoklardan istifadə insan haqlarının pozulması demək deyil. Biz beynəlxalq təcrübəyə də müraciət etmişik. Dünyanın inkişaf etmiş bir çox ölkələrində məhz elektroşoklardan istifadə edilir".

**Aqil Abbas isə dedi ki, Rusiyada, ya Avropada polisin səlahiyyətləri Azərbaycanda yoxdur:** "Rusiyada polis küçədə avtomatla gəzir. Bizdə bu, yoxdursa, deməli, ictimai-siyasi sabitliklə bağlıdır". A.Abbas polisin xəbərdarlıq atəşi açdıqdan sonra cinayətkara atəş açması barədə qaydanı da doğru saymadı və qanunvericiliyə dəyişiklik edilməsini, polisə əlavə səlahiyyət verilməsini istədi.

Sahib Alıyev isə "polis deyərkən bizim gözümüzün önünə 2003-cü ildə meydanda ayaqlar altına atılmış körpəni xilas edib ona nəfəs verən polis gəlir" dedi.

**S.Alıyev kəlbəcərli girovlarla bağlı kampaniyanın təşəbbüsçülərindən olduğunu dedi:** "Sevindirici haldır ki, 80 mindən artıq soydaşımız bu kampaniyaya qoşuldu". Deputat Fransadakı görüş zamanı da prezidentin bu məsələni qaldırdığını dedi və Tərtər sakinlərinin, həmçinin bu rayonda yaşayan kəlbəcərlilərin təşəkkürünü çatdırdı.

**Gövhər Baxşəliyeva daxili işlər naziri Ramil Usubovu müsbət xarakterizə edərək onun müraciətlərə daha operativ reaksiya verdiyini vurğuladı:** "Ancaq mən bu dəyişikliyə səs verməyəcəyəm. Çünki elektroşokun təsiri haqqında çox filmlər görmüşəm və kitablar oxumuşam. Bu, antihumanist tədbirdir. Cinayətkarın ayağından güllə vurmaq qat-qat elektroşok tədbirindən yüngüldür. Elektroşoka məruz qalan şəxs sabah həm mənəvi, həm də fiziki xəstə olacaq və cəmiyyət də bunu bağışlamayacaq".

**Qüdrət Həsənquliyev isə həmkarına cavab olaraq "elektroşokun tətbiqi humanizmdən qaynaqlanır" dedi:** "Tutaq ki, hər hansı cinayətkarın əlində bıçaq var, ona ya silah tətbiq olunmalı, ya da elektroşokdan istifadə olunmalıdır. Hansı daha yüngül metoddur?" **Q.Həsənquliyev bəzi deputatların üstüörtülü danışdığını vurğulayıb konkret ad çəkdi. Deputat Milli Şura üzvü Eldəniz Quliyevin son vaxtlar DİN əməkdaşları haqqında yazılarını xatırlatdı və nazirin onu məhkəməyə verdiyini qeyd etdi:** "Eldəniz Quliyev təxribatçıdır. O, Azərbaycan türkü ola-ola talışların hüquqlarını müdafiə komitəsi yaratmışdı. Bəs indi yaratmır? Deməli, o zaman xaricdən sifariş almışdı. Bu adam peşəkar təxribatçıdır".

Müzakirələrdən sonra qanuna dəyişikliklər qəbul edildi.

"Bələdiyyələrin statusu haqqında" Qanunun müzakirəsi də gərgin keçib. Xüsusilə də bələdiyyələrdən Milli Məclis qarşısında hesabat verməsinin tələb olunması, qurumun fəaliyyətinə MSK-nın xitam verməsi əlavəsi etiraz doğurdu.

Qüdrət Həsənquliyev MSK-nın bələdiyyənin fəaliyyətinə xitam verməsini düzgün saymadı. O, həmçinin bildirdi ki, 1700-dək bələdiyyənin Milli Məclisdə hesabat verməsi mümkün deyil.

İcrası mümkün olmayan bir qanunun qəbulunu düzgün saymayan deputat bunu reallaşdırmağın fiziki baxımdan mümkün olmadığını da qeyd etdi. Q.Həsənquliyev layihənin düzgün hazırlanmadığı üçün onun müzakirəsini dayandırmağı təklif etdi. Eldar Quliyev də təklif olunan dəyişikliklərə qarşı çıxdı.

**Hacı Qalib Salahzadə də Q.Həsənquliyevin dediklərini müdafiə etdi və gözlənilmədən sərt çıxış etdi:** "Bakı bələdiyyələrinin xəritəsi yoxdur. Torpaqlarla bağlı cinayətlər burdan ortaya çıxır. Nə qədər ki, icra hakimiyyətləri bələdiyyələrə nəzarət edirlər, o bələdiyyələr yalandandır". **Hacı Qalib ardınca seçkilərlə bağlı sensasion bəyanat da verdi:** "Artıq bələdiyyələr indidən seçilib, bələdiyyə sədrləri kim olacaq, camaat bilir. Sonra da deyirlər kadr yoxdur. Kadr var, sadəcə imkan vermirlər".

Yekunda isə o, "bir az cürətli danışdım, ancaq düz danışdım" əlavəsini etdi.

**Deputat Arif Rəhimzadə isə dedi ki, bələdiyyələr bir-bir hesabat verməyəcək:** "Ancaq seçicilərin sayı həddən artıq çox olan bələdiyyələrlə bağlı çətinlik olacaq. Bu zaman 10-20 iclas da ola bilər. Ancaq bu bələdiyyələrin xüsusi çəkisi 3 faizdir".

**A.Rəhimzadə Q.Salahzadənin də cavabını verdi:** "Bələdiyyələrə qarşı bu cür ifadələri işlətmək olmaz. Biz onlara hüquqi qiymət verə bilmərik. Seçki keçirilsin və sonra kimin necə seçiləcəyinə hüquqi qiymət veriləcək".

**Deputat Fazil Mustafa da iki seçkili qurumdan birinin digərinə hesabat verməsini düzgün saymadı:** "Bələdiyyələrin əksəriyyətinin əlində mülkiyyət, reklam yoxdur. Öz ərazisində nəqliyyata nəzarət edə bilmir. Ancaq qabiliyyətli işçilər hesabına əhalidən torpaq pulu yığır. 5 ildə burda kimdən hesabat istəyə bildik? Bunun kökündə hüquqi nonses var, onu tətbiq etmək mümkün deyil. Ya gərək statusunu qaldırmalıyıq, ya da... Onsuz da səlahiyyəti yoxdur, hələ bir az da zəiflədirik. Bu, dövlətin əleyhinə qurum deyil". F.Mustafa da dəyişikliklərə qarşı çıxdı.

**Z.Əsgərov isə Fazil Mustafanın bu mövqeyinə etiraz etdi:** "Yaxşı olar ki, qanunun mahiyyətini başa düşəsiniz. Siz hüquqşünas kimi danışmırsınız. Bu dəyişiklik bələdiyyələrin fəaliyyətini genişləndirəcək".

Deputat İlham Əliyev bələdiyyələrlə bağlı tənqidi fikirləri qəbul etmədi və qanunvericiliyə dəyişikliyi dəstəklədi.

**Siyavuş Novruzov da hakimiyyətin mövqeyindən çıxış etdi və Hacı Qalibə cavab verdi:** "Kimsə deyir ki, guya bələdiyyə sədri olacaq adamlar bəllidir. Bu, kökündən yanlışdır. Bunu o adamlar deyir ki, adamlarını bələdiyyə seçkisində namizəd kimi qeydiyyata aldıra bilmirlər".

Səs çoxluğu ilə qanuna dəyişikliklər qəbul olundu.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014

**“Azərsu” ASC iki ildir Bakıda, Abşeronda içməli su xətlərini yeniləməklə məşğuldur. Bu prosesi həyata keçirərkən isə ASC yaşayış məntəqələrini viran qoyur, yolları keçilməz edir. Acınacaqlı hala düşən ərazilərdən biri də Abşeron rayonu, Ceyranbatan qəsəbəsidir. Qəsəbənin sakinləri bununla bağlı redaksiyamıza şikayət ediblər. Ceyranbatan qəsəbəsi, Gündüz Abdullayev küçəsi bina 7 və 9-un sakinləri deyirlər ki, “Azərsu” 2013-cü ilin payızında bu ərazidə su xətlərini heç bir ehtiyac olmadan yeniləyib:**



# “Azərsu”nun viran qoyduğu Ceyranbatan

## ASC qəsəbədə “ara xəlvət, tülkü bəy” prinsipi ilə iş görüb; ortada xeyli pullar mənimsənilib; sakinlər: “Bizi aldadıb qaçdılar”





“”Azərsu"nun işçiləri boruları yeniləyərkən bizim binanın həyətini tamamilə dağıtdılar, o qədər yöndəmsiz iş gördülər ki, sakinlərin öz hesablarına quraşdırdığı skamyaları da ekskavatorla vurub sındırdılar. Boruları yeniləyib qurtaranda isə həyəti elə dağılmış vəziyyətdə qoyub getmək istədilər. Buna etiraz etdik, binanın qarşısını əvvəlki halına salmağı tələb etdik. Qanunla hər hansı bir qurum təmir-tikinti işləri apararkən dağıtdığı asfalt örtüyünü bərpa etməli, vurduğu ziyanı aradan qaldırmalıdır. Bunun üçün dövlət büdcəsindən kifayət qədər pul ayrılıb. Ancaq “Azərsu” həyətimizi bərpa etmədi, blokların qarşısına bir-iki “lapatka” qır töküb gediblər. Biz bununla bağlı hələ o zaman şikayət etdik, “Azərsu” rəsmiləri gəlib dedilər ki, narahat olmayın, gəlib binanın qarşısını asfaltlayacağıq. Qeyd etdilər ki, maksimum iki aya kanalizasiya xətləri də dəyişəcək, onu da edib asfaltı birdəfəlik vuracaqlar. Lakin həmin vaxtdan 10 ay ötüb, artıq ikinci qış yaxınlaşır, biz hər gün evimizdən çıxan kimi topuğadək palçığa batırıq. Uşaqlar binanın qarşısına düşə bilmir, maşın saxlamağa yer tapmırıq, sanki uçqar bir dağ kəndində yaşayırıq. Hansı ki, bura Ceyranbatan qəsəbəsinin tam mərkəzidir, amma biz sanki gölməçədə yaşayırıq. “Azərsu” faktiki olaraq bu hərəkətləri ilə əhalidə narazılıq yaradır, hakimiyyətə ən ciddi müxalifətçiliyini edir".

Binanın qarşısındakı vəziyyət fotolardan da göründüyü kimi acınacaqlıdır. Sakinlər bildirdilər ki, aidiyyəti qurumlar bir tədbir görməsələr, onlar etiraz aksiyası keçirmək məcburiyyətində qalacaqlar.

❑ **M.MAHRIZLI**

# Bakı kəndlərində qaz problemi yaranıb

## Noyabrın 15-də qış rejiminə keçiləcək; soyuq otaqlarda təhsil alan şagirdlər xəstəliklərə yoluxurlar



**Son günlər Azərbaycanda havaların kəskin soyuması müşahidə olunur. Nəticədə bir çox bölgələrdə, paytaxtın müxtəlif yerlərində qaz, istilik problemləri ortaya çıxıb. Bakının bir neçə kənd, qəsəbəsində qaz yoxdur. Bəzi yerlərdə isə qazın təzyiqi olduqca zəifdir.**

Havaların soyuması və yaranan problemlər orta məktəblərə də ciddi təsir edib. Azərbaycanda qış rejiminə noyabrın 15-də keçildiyi üçün orta təhsil müəssisələrinə istilik verilmir. Nəticədə soyuq otaqlarda təhsil alan şagirdlər xəstəliklərlə üzləşir. Bəzi ölkələrdə havalar soyuyanda qış vaxtına daha tez keçilir. Təəssüflər olsun ki, Azərbaycanda bunun tam əksidir.

**Deputat Fazil Mustafa** havaların soyumasından sonra vətəndaşların üzləşdikləri problemlərlə bağlı ona çoxlu sayda şikayətlərin daxil olduğunu bildirdi: “Bakıxanov qəsəbəsindən millət vəkili seçilmişəm. Kəndlərdə problemlərin olmasından xəbərim var. Bu, əslində məmurların yarıtmaz fəaliyyəti ilə bağlıdır. Həqiqətən insanlar qaz problemindən ciddi əziyyət çəkir. İşıq problemləri də əvvəllər aktual idi. İndi də bu problem qalmaqdadır. Amma nisbətən düzəlib. Bütün bu problemlər mütləq həllini tapmalıdır. Biz aidiyyəti orqanların qarşısında daim bu problemlərlə bağlı məsələ qaldırırıq. Təəssüf edirəm ki, nəticə hələ də istədiyimiz səviyyədə deyil. Bu problemlərdən ən çox əziyyət çəkənlər məktəblilərdir. Seçildiyim əraziyə daxil olmayan yerlərlə də maraqlanıram. Çünki mənə çoxlu sayda şikayətlər olur. İmkanım daxilində bu işlərlə məşğul oluram. İndi Azərbaycanda şərtlər elədir ki, bu cür məsələlərə faktlarla müdaxilələr məmurların işinə heç bir təsir göstərmir. Seçildiyim Bakıxanov qəsəbəsindən də mənə müraciətlər olur. Amma digər ərazilərə baxanda azdır. Bakı kəndlərində istilik problemi daha çoxdur. Çünki əsasən istilik sistemində qazdan istifadə olunur. Qazın verilməsində problemlər yaranması birbaşa istiliyə təsir edir”.

**“Azəristiliktəchizat”**

**ASC-nın sədr müavini İlham Mirzəliyev istilik sisteminin norma və qaydalarından danışdı:** “İsti hava mövsümünün başa çatması və başlaması kiminsə istəyindən, istilik hiss edib-etməməsindən asılı deyil. Bunun üçün norma və qaydalar var. Bu, elmə əsaslanmış qaydadır. Orada qeyd olunur ki, temperatur 6 dərəcədən aşağı olarsa, bu halda istilik mövsümü vaxtından əvvəl başlaya bilər. İndi doğrudur, soyuğu biz də hiss edirik. Temperatur 12-14 dərəcədir. Bayırda 15-16 dərəcə istilik olanda otaqda 18-20 dərəcə olur. Bu hesablanmış sistemdir. Yenə deyirəm ki, bu dərəcədən aşağı olarsa, vaxtından əvvəl başlamaq olar. Bakı kəndlərinə qazın verilməsində problem olduğunu isə ilk dəfə eşidirəm. Qış və yay üçün xüsusi qrafik müəyyənləşib. Ola bilsin ki, noyabrın 15-dən əvvəl istilik verilsin. Xüsusilə bu, məktəb, xəstəxana və uşaq baxçalarına aid ola bilər”.

❑ **Cavanşir ABBASLI**




# Güzdəkdə qohumlar arasında mülk qalmaqalı

## Qəsəbə sakini məhkəmənin onu evindən qanunsuz çıxardığını iddia edir

**Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsinin sakini Vasif Aslanov mülk problemi ilə bağlı redaksiyamıza müraciət edib. O deyir ki, özünü yerli bələdiyyənin nümayəndəsi kimi tanıdan Rövşən Həsənov tərəfindən aldadılıb, mənzili qanunsuz olaraq əlindən alınıb. Şikayətçinin sözlərinə görə, o, 2011-ci ildə adıçəkilən şəxsdən 2500 manata 0, 02 ha torpaq alıb: “Həmin şəxs bizim uzaq qohumumuzdur, onun bacısı İzzət mənim qardaşımın arvadıdır. 2011-ci ildə mən ev tikmək üçün torpaq axtardığım zaman o, özünün bələdiyyə işçisi olduğunu bildirərək mənə hazırda yaşadığım sahəni satdı. Ancaq sənəd tələb edərkən mənə Əhmədli Bəxtiyar Heydər oğlunun adına Abşeron Rayon İcra Hakimiyyətindən verilmiş 1074 saylı sərəncamı və fərdi yaşayış evi tikmək üçün Aşağı Güzdək bələdiyyəsinin eskiz layihəsini verdi. Mən ev tikən zaman əraziyə gələn sahə müvəkkillərinə bu sənədi göstərdim və evi tikib köçdüm. Lakin bu günə qədər Rövşən adlı şəxs mənə evin sənədlərini verməyib. Evin su, işıq, qaz sayğaclarının hər biri mənim adımadır və vaxtı-vaxtında kommunal borclarımı ödəyirəm”.**

Şikayətçinin sözlərinə görə, 2014-cü ildə onun qardaşı Rusifin Rövşənin bacısı İzzətdən ayrılmaq haqqında qərarı onların ev məsələsini yenidən gündəmə gətirib: “İndi Rövşən bacısının qisasını məndən almaq istəyir və deyir ki, nə olur-olsun səni bu evdən çıxaracam. Bu hadisədən qısa müddət keçəndən sonra Rövşən Həsənov mənim tanımadığım Südabə Səfərova adlı bir qadının dilindən əmlak tələbi ilə məni Abşeron Rayon Məhkəməsinə verdi. Hakim İlham Kərimlinin sədrliyi ilə keçən məhkəmədə ittiham olundum. Guya bu qadına aid olan torpaq sahəsində onun özü üçün tikdiyi evi zəbt edib orada yaşayıram. İlham Kərimli mənim öz evimdən çıxarılmağımla bağlı qətnamə çıxardı. Onu da deyim ki, bu müddət ərzində mən Südabə Səfərovanı görməmişəm və elə bir adam tanımıram. Məhkəmə yalnız Rövşən Həsənovun ifadəsini nəzərə aldı. Mənim faktlarım və şahidlərim nəzərə alınmadı. Mən bu məhkəmə qətnaməsindən Sumqayıt Apelyasiya Məhkəməsinə şikayət etmişəm. Mənə gizli şəkildə bildirilib ki, artıq burada da anlaşma əldə olunub və mənim iddiam rədd ediləcək”.

Şikayətçi bildirib ki, R. Həsənovun qanunsuz torpaq satdığı şəxslər arasında onun yaxın qohumları da var və hələ ki onlara da heç bir sənəd verilməyib.

**Abşeron Rayon Məhkəməsinin qətnaməsində isə qeyd edilir ki, Abşeron rayonu Aşağı Güzdək bələdiyyəsinin 4 sentyabr 2007-ci il tarixli , 1 saylı qərarı ilə iddiaçı Səfərova Südabə Ədalət qızına fərdi yaşayış evinin tikintisi üçün 0, 05 ha torpaq sahəsi ayrılıb:** “Südabə Səfərova səhhəti ilə bağlı tikinti işləri apara bilməyib və Rövşən Həsənova etibarnamə verib ki, torpaq üzərində alqı-satqı, tikinti və sair işləri apara bilsin. Rövşən Həsənov isə Südabə Səfərovaya 10.000 manat verib. Sonradan Rövşən Həsənov torpağın 0,03 ha hissəsini Lazım Mirzəyevə satıb, qalan 0,02 ha torpaq sahəsində fərdi yaşayış evi tikib və sonradan həmin evdə Hacıqabul rayonunda yaşayan bacısının əri Rusif Aslanova ailə üzvləri ilə müvəqqəti yaşamağa icazə verib. Sonradan Südabə Səfərovaya məlum olub ki, Rövşən Həsənovun ailəsində problemlər yaranıb və o, evi qardaşı Vasif Aslanova verərək tərk edib. Vasif Aslanov isə mənzili tərk etməkdən imtina edib”.

Məhkəmə qət edib ki, iddia təmin edilsin, Vasif Aslanov mənzildən çıxarılsın.

Probleminin ictimailəşdirilməsi məqsədilə redaksiyamıza üz tutan Vasif Aslanov isə ölkə başçısından bu məsələyə diqqət göstərməsini istədiyini bildirir.

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014

# Havalar soyuyan kimi dəm qazı can almağa başladı

## Ekspert belə halların qarşısını üçün almaq xüsusi qurum yaradılmasını təklif edir: "Bu sahədə özbaşınalıq və səhlənkarlıq hökm sürür..."

**Payız-qış mövsümü başlar-başlamaz dəm qazı mövzusu yenə də gündəmə gəldi. Hələ mövsümün yeni başlamasına baxmayaraq dəm qazı kabusu artıq ev-ev, mənzil-mənzil dolaşır. Ümumiyyətlə, son illər ölkə ərazisində dəm qazından boğulma halları xeyli artıb.**



Hər il payız-qış mövsümündə neçə-neçə sakin dəm qazının qurbanı olur. Əvvəllər boğulma faktları yalnız paytaxtda qeydə alınırdısa, indi bu, rayonlarda da müşahidə edilir. Vəziyyət isə düzəlmir. Qeyd edək ki, dəm qazından zəhərlənmələr ümumən zəhərlənmələr siyahısında *(alkoqol, dərman preparatları və narkotik maddələr)* dördüncü yeri tutur.

Dəm qazı orqanizmə əsasən nəfəsalma zamanı ağciyərlər vasitəsilə daxil olur. İnsanlar yüksək konsentrasiyalı dəm qazı olan mühitdə çox qaldıqda zəhərlənmə daha güclü, ölüm isə bir o qədər sürətli olur. Bəs dəm qazının törətdiyi faciələrin qarşısını almaq üçün öncə nələri nəzərə almaq lazımdır?

**Azad İstehlakçılar Birliyinin kommunal məsələlər üzrə eksperti Nüsrət Qasımov insanların bu mövzuda səhlənkar olduğunu dedi:** "Əgər yayda 3-4 milyon kub metr qaz işlədilirsə, qışda bundan dəfələrlə çox işlədilir. Yayda qapı, pəncərə açıq olur, qışda isə hər yeri qapadırlar. Buna görə də qazın yığılma ehtimalı qışda daha çox olur. Əvvəllər Yanğından Könüllü Mühafizə Cəmiyyəti vardı. Bu cəmiyyət qanuna uyğun olaraq su qızdırıcılarını, tüstü bacalarını ildə bir dəfə qış mövsümü qabağı yoxlayırdı. Artıq 30-35 ildir bu iş başlı-başına qalıb. Heç kim tədbir görmək və məsuliyyət daşımaq istəmir. "Azəriqaz"ın bu işə bir aidiyyəti yoxdur. Buna mənzil istismar idarələri deyilən qurum, mənzil tikinti kooperativləri və ev sahibi cavabdehdir. Ancaq təəssüflər olsun ki, Bakı şəhərində əhalinin, istehlakçının üz tutacağı bir qurum yoxdur ki, gedib müraciət etsin və tüstü bacalarını təmizlətdirsin. Tüstü bacaları təmizlənmədiyinə və ventilyator işləmədiyinə görə evə dəm qazının yığılma ehtimalı olduqca çoxdur. Keçən il 1700, bəlkə də daha çox yerdə qazdan zəhərlənmə halı baş verib. Bu il də soyuqlar düşən kimi artıq 5-6 nəfər dəm qazından dünyasını dəyişib. Yayda ventilyator kanallarında quşlar yuva qura və zibil yığıla bilər. Bundan başqa, onun içərisində uçqun ola bilər. Bu səbəblərdən ventilyator sistemləri daimi nəzarətdə olmalıdır. Ancaq bu nəzarətçi yoxdur. İnsanlar da qaza vərdiş etdiyindən, ya nədəndirsə, öz taleyinə laqeyd yanaşır. Heç kim qazdan qorxmur".

**Ekspert ticarət şəbəkəsində müxtəlif ölkələrdən müxtəlif qızdırıcı cihazların gətirilib satılmasına da toxundu:** "Həmin cihazlar bizim şəbəkənin təzyiqinə uyğun deyil. Pul qazanmaq üçün indi hamı usta olub. İnsanlar da bilmədən bu ustaları çağırır və evlərinə qaz peçi quraşdırır və ya təmir etdirir, yerini dəyişdirir. Ancaq vətəndaşlar quraşdırdığı cihazın lisenziyasının olmasına və təhlükəsiz quraşdırılmasına diqqət etməlidir. İşini bilməyən ustaların ucbatından qaz cihazları harada gəldi quraşdırılır. Məsələn, 4 göz qaz cihazları üçün həcm 15, kolonka üçün 7 kub metr həcm olmalıdır. Təəssüf ki, bu normalara və qanunlara riayət edən yoxdur. Əhali bu mövzuda çox səhlənkar olub. Bu cür halların qarşısını almaq üçün qurum yaradılmalıdır. Həmin qurum ildə bir dəfə "Azəriqaz"a gətirib arayış verməlidir ki, qış gəlmədən qazla bağlı bütün təhlükəsizlik tədbirləri görülüb. Ancaq əfsus ki, bunu edən yoxdur. Buna görə də Azəriqaz"ın ixtiyarı var ki, qazları kəssin. Qazı da kəsəndə ajiotaj yaranır. Qazla bağlı artıq dayanacaqlarda, avtobuslarda elanlar yapışdırılıb və maarifləndirmə işləri aparılır. Unutmaq lazım deyil ki, qaz minadan da güclü partlayış törədir. Hündür mərtəbəli binaların birinci mərtəbəsində qaz cihazları tikintinin təhlükəsiz qaydalarına uyğun olaraq quraşdırılmalı və orada qaz siqnal cihazları olmalıdır. Bunun qiyməti 12 dollardır. 100-200 min dollar xərc çəkib ofis, sex tikirlər, amma 12 dollar verib qaz siqnalzasiya aparatı almırlar ki, sızma olanda o aparat xəbər versin. Bir sözlə, bu sahədə özbaşınalıq və səhlənkarlıq hökm sürür".

❑ **Günel MANAFLI**




## "DəmirBank" borclularından prokurorluğa şikayət edib

**Bəzi hüquqi və fiziki şəxslər tərəfindən bankdan alınmış güzəştli kreditlərdən təyinatı üzrə istifadə edilməməsi barədə "DəmirBank" Açıq Səhmdar Cəmiyyətinin müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, araşdırmalar zamanı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondunun müvəkkil kredit təşkilatı kimi büdcə vəsaiti və öz vəsaitləri hesabına "DəmirBank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2006-2010-cu illərdə kəndli-fermer təsərrüfatının inkişafı, tikinti və sənaye sahəsində işlərin sürətləndirilməsi məqsədi ilə saxta biznes planlar və digər sənədlər tərtib etmiş bəzi fiziki və hüquqi şəxslərin adlarına güzəştli şərtlərlə verilmiş 10 milyon 666 min 600 manat məbləğində külli miqdarda kreditin təyinatı üzrə istifadə edilməyərək həmin fiziki və hüquqi şəxslər tərəfindən israf edilib mənimsənilməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə), 195.2 ( külli miqdarda qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

## Azərbaycanlı şirkət sahibi İŞİD-çi çıxdı

**Rusiyanın Federal təhlükəsizlik Xidmətinin əməkdaşları paytaxt Moskvada genişmiqyasılı əməliyyat keçiriblər. Axar.az-ın məlumatına görə, əməliyyat eyni zamanda Başqırdıstanın paytaxtı Ufada da aparılıb.**

Əməliyyat nəticəsində İŞİD terror təşkilatına yaxınlığı ilə seçilən onlarla şəxs tutulub.

Moskvada keçirilən əməliyyatda isə İŞİD-lə əlaqədə olan və onlara maliyyə yardımı edən 6 azərbaycanlı ələ keçib.

Azərbaycanlıların biri şirkət direktorudur. Onun bir neçə obyektinin olduğu deyilir. Məlumata görə, həmyerlilərimiz də ona məxsus olan və paytaxtın Skotoproqonnıy keçidində yerləşən avtoservisdə saxlanılıblar.

Azərbaycanlıların evlərində aparılan axtarış zamanı külli miqdarda dini ədəbiyyat və müxtəlif ünvanlar, pul köçürmələri olan blanklar da götürülüb.

## Bakıda 3 qadın küçədə cinayət törətdi

**Oktyabrın 27-də Nəsimi rayonunun Bülbül prospektində şəxsiyyəti məlum olmayan 3 nəfər Bakı şəhər sakini Nigar Zərgərlinin çantasını açıq talama yolu ilə almağa cəhd göstərib. ANN.az-ın Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, həmin şəxslər paytaxt sakini Məhbubə Əliyevanı da döyüblər.**

Nəsimi RPİ 22-ci PB əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətmiş Yevlax rayon sakinləri Rasimə Abdullayeva, Məleykə Bəkirova və Gəncə şəhər sakini Gülnarə Abbasova saxlanılıb.

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**
**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 266 (5975) 29 oktyabr 2014







# Bacısının başını kəsən qızın ata evindən reportaj

## Pərvanə Nuriyevanın törətdiyi tükürpədici qətl haqda əmisi və Şəkidə bu ailəni tanıyanlar "Yeni Müsavat"a danışdılar; atası Etibar Nuriyevin qızları ilə münasibəti necə olub?

**Ötən həftə bacısının başını kəsən 20 yaşlı Pərvanə Nuriyeva hamını şoka saldı. Oktyabrın ən səs-küylü və tükürpədici cinayətlərindən biri olan bu hadisənin sirr pərdəsi isə hələ də qalxmayıb. Pərvanənin bacısı Günelin boğazını kəsərək amansızlıqla qətlə yetirməsi müəmmalı olaraq qalır.**

Goranboyda əmisi oğlu ilə öpüşüb-görüşdüyünə görə arvadını və onun daha 6 qohumunu yer üzündən silən Rafiq Hüseynovun cinayəti bu olaya qədər ən dəhşət doğuran qətliam sayılırdı. Amma Nuriyeva bacılarının ürəkparçalayan faciəsi "Goranboy terroru"nu kölgədə qoydu.

P.Nuriyeva ilkin ifadəsində bacısının cinsi azlıqlarla münasibətinə son qoymadığı üçün bu addımı atdığını deyib. Ancaq polis mərhumənin barəsində deyilənləri şayiə adlandırır. Eləcə də G.Nuriyevanın oxuduğu musiqi məktəbində tələbə yoldaşları cinsi oriyentasiya amilini böhtan hesab edirlər. Qatilin psixi pozuntusu olduğu da istisna edilmir. Yaxınları isə Pərvanədə heç bir psixoloji problem hiss etməyiblər.

Ancaq qətldən bu vaxta qədər Nuriyevlər ailəsi heç bir açıqlama verməyib, söz-söhbətə aydınlıq gətirməyiblər. Əslən Şəkidən olan bacıların atası, rayonda tanınmış iş adamı, bələdiyyə üzvü olan Etibar Nuriyev baş verən faciə barəsində bir kəlmə də olsun danışmayıb.

Bəlkə də deyəcək sözü yoxdur, yaxud da yaşadığı ağır faciənin sarsıntısından özünə gələ bilməyib. Ailədən bir açıqlama olmadığı üçün bu sirli qətl barəsində hər ağızdan bir söz eşidilir. Amma bilinmir ki, skripka ifaçısı olan Pərvanənin pianoçu bacısı Güneli belə dəhşətli şəkildə öldürməsinin arxasında nə dayanır. Odur ki, bu gizlin qalan məqamları araşdırmaq üçün Nuriyevlər ailəsinin Şəkidə yaşadığı ata evinə getdik.

***

Nuriyevlərin Şəkidə "Gəncəli məhəlləsi" deyilən massivdə evi var. Amma bu məhəllədəki evlərini tərk ediblər.

Darvazanı nə qədər döysək də açan olmadı. Məhəllə camaatının sözlərinə görə, onlar hazırda Vərəzət kəndində yerləşən bağ evində yaşayırlar, Günelin yas mərasimi də orada təşkil olunub. Gecə saatlarında kəndə üz tutub, oradakı evi axtardıq.

...Şəkidən aralıda, bomboş düzənliyin ortasında geniş bir ərazi hasarlanıb. Yan-yörədə nə işığı yanan ev var, nə bir yaşayış məntəqəsi. Tam bir səhranın tən ortasıdır və ətrafda ins-cins səsi belə eşidilmir. Xoşbəxtlikdən qarşımıza çıxan maşının sürücüsündən Etibar Nuriyevin evinin məhz həmin hasarın içində olduğunu öyrənirik.

Sürücünün dediyinə görə, qızların atası evdədir.

Qəribədir ki, özünü ətraf mühitdən təcrid edən Nuriyev böyük bir ərazini hasarlayıb ev tikdirib. Həyətin qapısından evə qədər xeyli yol var. İçəridə 3-4 it keşik çəkir. Ümumiyyətlə, ev baş yoldan 1, 5 kilometr aralıda yerləşir. Bir xeyli ev yiyəsini çağırandan sonra uzaqdan bir nəfərin gəldiyini görürük.

Özünü Etibar Nuriyevin qardaşı kimi təqdim edən və adını söyləməyən ağsaqqal bildirdi ki, danışmağa heç bir söz qalmayıb. Onun dediyinə görə, qardaşı hadisə ilə bağlı Bakıya gedib və bir gün sonra qayıda bilər. Nuriyevaların əmisi nə qardaşının nömrəsini verdi, nə də qətlin niyə baş verdiyini aydınlaşdırdı. Sadəcə, qızlar haqda yazılanların hamısını əfsanə adlandırdı: **"Camaat hər şeyi bilir, əlavə nəsə deməyə ehtiyac yoxdur. Atası gələr, özü danışar. Mən heç nə deyə bilmərəm".**

E.Nuriyevin qardaşı Pərvanədə heç bir psixi problem olmadığını qeyd etdi: **"Televizorda o qədər deyilib ki, daha bəsdir. Bura qədər boğaza yığılmışıq. Etibar müəllim heç kəslə görüşmək istəmir. O qızın da heç bir problemi olmayıb, yazılanların hamısı əfsanədir, hərə bir söz danışır. Allah var başımızın üstündə və nə olduğunu görür"...**

***

Ertəsi gün yenidən səhər saatlarında Nuriyevlərin yaşadığı "gözdən uzaq, könüldən iraq", qəribə bir yer olan əraziyə gəlirik. Qapını xeyli döyəndən sonra bu dəfə bağda işləyən fəhlə qarşımıza çıxır və evdə heç kəsin olmadığını, hamının Bakıya getdiyini deyir...

***

Lakin Şəkidə Nuriyevlər ailəsini tanıyanlar bəzi məlumatlar verdilər. Əvvəla, haşiyə çıxaraq deyək ki, rayonda bu qətl haqda hamı susur, E.Nuriyevi isə hörmətli bir adam kimi təqdim edirlər. Deyilənlərə görə, E.Nuriyev müxtəlif növ quş həvəskarıdır. Həyətində cürbəcür ağaclar





əkib, qırqovul, tovuzquşu, ördək, bildirçin və başqa çöl quşları saxlayır. Onun həyəti 4 hektar ərazidən ibarətdir və gələcəkdə təsərrüfat işlərini genişləndirmək planı olub. Onun balıqçılıq gölü, meyvə ağacları var.

Şəkidə bu ailəni tanıyanlar danışırlar ki, Nuriyev hər üç övladının tərbiyəsi ilə şəxsən özü məşğul olub, onlara bərabər səviyyədə baxıb, birinə aldığını o birindən əsirgəməyib: **"Hətta musiqi təhsili alan qızları üçün Balakəndən xüsusi müəllim gətirmişdi. Əkiz qızların şəkillərini də ofisdə stolunda qoyurdu. Amma üç bacını bir-birindən ayırmazdı, onlara eyni dərəcədə baxardı. Böyük uşağı balacasından fərqləndirsin, ya birinə paltar alanda o birinə almasın, belə şey ola bilməz. Uşaqlara qarşı olduqca həssas davranardı. Burda oturma orda otur, bunu belə eləmə, onu belə qoy. Yəni onlardan gözünü ayırmazdı. İndi eşitdiyimə görə, şokdadır. Heç özləri də bilmir ki, bu hadisə necə olub, niyə olub. O uşaqlarda heç kəs psixi problem hiss etməyib. Bəlkə də Bakıda mühit onları dəyişib".**

***

Beləcə, Pərvanənin bacısını öldürməyə qızlar arasında ayrı-seçkilik qoyulmasının səbəb ola bilməsi ehtimalı da puç çıxır. Yerdə qalır qısqanclıq və psixoloji vəziyyət amilləri. Buna da istintaq yekun qənaətə gələcək.

Nuriyevlər ailəsinin qapalı olması haqda deyilənlərə gəldikdə isə Şəkidə onları tanıyanlar deyirlər ki, Etibar həmişə camaat arasında olub, ünsiyyət quran adamdır, heç kimdən qaçmırdı.

Onu da söyləyirlər ki, 2000-ci il hadisələri zamanı da E.Nuriyevin başı çox ağrıyıb. Belə ki, Şəkidə baş verən hadisələrdə tanınmış iş adamı Tehran həbs olunub. Həmin zaman Nuriyev onun mühasibi olub deyə başı müsibətlər çəkib. Hazırda bələdiyyə üzvü olan Nuriyevin başına gələn bu hadisədən Şəki bələdiyyəsində də danışırlar. Amma mətbuata yox, özləri arasında...

❑ **"Yenì Müsavat"ın Reportyor Qrupu**
**Şəkì, Vərəzət**

# Elton Məmmədovun obyekti paytaxtin girişini iflic edib





## Bakı-Sumqayıt yolunda tıxacın yaranmasının səbəbi avtovağzaldır; deputatın biznes marağına görə bu hissədə genişləndirmə işləri aparılmasına imkan verilmir

**Bakıda hər gün tıxac yaşanan məkanlardan biri də Bakı Sumqayıt yoludur. Günün istənilən saatında Xırdalan istiqamətindən Bakıya gələnlər ekologiya postunu keçəndən sonra tıxacda bəzən saatlarla gözləməli olurlar. Səhər və axşam saatlarında isə burada sözün əsl mənasında fəlakətli vəziyyət olur, bəzən tıxac Xırdalan dairəsindən "Şamaxinka" adlanan əraziyə qədər davam edir.**

Qeyd edək ki, ötən il Bakının şimal girişində tixacın qarşısını almaq üçün tədbirlər görülməsinə başlanılıb. Bu məqsədlə Biləcəri ərazisində yaşıllıq zolağını da kəsib yolu genişləndirdilər. Hazırda burada maşınların 6-7 sıra hərəkət etməsinə imkan var. Ancaq bunun bir faydası yoxdur, çünki aşağı hissələrdə yol nə qədər genişləndirilir genişləndirilsin, Bakı Beynəlxalq Avtovağzalının qarşısında 3 maşın zorla yanaşı hərəkət edə bilir. Avtovağzaldan çıxan avtobuslar, taksilər də hərəkəti ikiqat çətinləşdirir. Bu üzdən Bakının girişində avtomobillərin axınında çətinlik yaranır və avtomatik olaraq mütəmadi tixac meydana gəlir.

**Həmin ərazidə yenidənqurma işləri aparan şəxslərdən birinin verdiyi məlumata görə, avtovağzalın qarşısı genişləndirilməyəcəyi halda Bakının girişində tıxacın qarşısının alınmasının mümkünsüzlüyü barədə müvafiq qurumlara məlumat verilib:** "Lakin avtovağzalın avtombillərin hərəkətinə mane olan hissəsinin sökülməsinə razılıq yoxdur. Çünki bura nəqliyyat naziri Ziya Məmmədovun qardaşı, deputat Elton Məmmədovun obyektidir. Yol-tikinti işlərini isə Nəqliyyat Nazirliyi həyata keçirir. Əgər avtovağzal başqa birinin obyekti olsaydı, oranı indi çoxdan söküb yolu genişləndirmişdilər. Ancaq obyekt də Məmmədovlarındır, yol işinə məsul olanlar da. Burada avtovağzal sökülüb yol genişləndirilməyənə qədər tixacın qarşısını almaq mümkün olmayacaq".

Fotolara baxdıqda da görəcəksiniz ki, avtovağzala qədər olan hissədə avtomobillər 6-7 sıra ilə gedir, avtovağzalın qarşısına çatanda isə yol darlaşır və maşınlar 2 sıra ilə hərəkət etmək zorunda qalırlar.



❑ **T.ƏHMƏDLİ**

YENİ MÜSAVAT

Son səhifə

N 266 (5975) 29 oktyabr 2014



## Uşaq sözəbaxandırsa, şübhələnin!

Amerika Sosial Həyat Dərnəyi ailədəki sözəbaxan, həddən artıq nümunəvi uşaqların da narahatçılıq doğuran məqam olduğunu açıqlayıb. Dərnək psixoloqları aydınlaşdırıb ki, əslində uşağa xas olan dəcəllik, bəzən ziyankarlıq hansısa balacada yoxdursa, bu, həm də onun psixologiyasındakı bəzi pozğunluqdan xəbər verir. Yəni həddən ziyadə sakit uşaq gələcəkdə təhlükəli bir cani, psixopat, serial qatil ola bilər. Alimlər təbii olmayan hər şeyin gələcəkdə fəsad törədə biləcəyini yazıb. Sakit, nümunəvi uşaq isə heç də təbii sayılmır.



## İştahı küsdürmənin 5 qızıl qaydası

Qışın gəlişi ilə qadınların qorxulu röyası olan artıq çəki problemi də maksimum həddə çatıb. Elə bu səbəbdən həkimlər iştahı kəsmənin 5 qızıl qaydasını müəyyənləşdiriblər. Bunlardan birincisi yeməyi bol-bol çeynəməkdir. Həkimlər müəyyənləşdirib ki, yeməyi uzun müddət çeynəyib udandan sonra beyin bədənə gedən qidaları qeydiyyata alır və dad alma özəlliyinizi də təmin edir. İkinci əsas şərt şübhəsiz ki, idmandır. Üçüncü şərt dəyişik dadlarla dad alma ehtiyacını doyuzdurmaqdır. Bu halda insan daha az miqdarda yeməklə kifayətlənə bilir. Tez-tez və az-az yemək də iştahın nəzarətdən çıxmasını əngəlləmənin ən asan yoludur. Və sonuncu şərt bol su içməkdir. Bu, insanın özünü tox hiss etməsinə səbəb olur.

# Bundan sonra siçanlar da danışacaq?

Amerikalı mütəxəssislər müəyyənləşdirib ki, siçanlar da quşlar və insanlar kimi mahnı oxumağı öyrənə bilirlər. Araşdırmalara görə, birlikdə yaşayan erkək siçanlar bir müddət sonra səslərini bir-birinə uyğunlaşdırırlar. Bundan başqa, siçanların da beynində quşlarda və insanlarda olduğu kimi eşidilən səsləri öyrənmək üçün bir davranış mexanizmi var. Bununla bağlı daha öncə aparılan bir araşdırmada qeyd olunmuşdu ki, erkək siçanlar cütləşmə zamanı dişi siçanı tovlamaq üçün qəribə səslər çıxarır. Bu insanın eşidə bilməyəcəyi qədər zəif səs olsa da, incələmə zamanı onun ağlamsınaraq oxunan mahnıya bənzədiyi üzə çıxıb. Amma siçanların da beynində səslərin tənzimlənməsi üçün hissələr var və onlar beynin ön hissəsində yerləşir.



# Bomjlar üçün küçənin divarlarına şəkil çəkdi



Amerikada yaşayan "Skid Robot" ləqəbli küçə sənətçisi evsizlərin yaşadığı küçələri onlar üçün boyayıb. Los-Anceles vətəndaşı olan sənətçi küçədə yaşayan evsizlər üçün onların xəyal və arzularını ifadə etməyə çalışıb. Buna görə də həmin küçələrin divarlarına spreylə maraqlı fotolar çəkib. Sənətçi özünü şəhərin kənar məhəllələrindəki alkoqolik, evsiz və fahişələrə ehtiyacı olan hər şeyi verən anonim bir sənətçi olaraq təqdim edir. Küçə sənətçisi evsizlər üçün divarlara Apple məhsullarının, yeməyin, pulun, video oyunlarının, lüks maşınların şəklini çəkir.

## Selfi çəkdirməyin, başınıza bit düşəcək



Rusiyanın Səhiyyə Nazirliyi cəmiyyətə yeni bir müraciət ünvanlayıb. Müraciətə görə, ölkədə insanların sağlamlığı baxımdan selfie qadağan olunmalıdır. Buna səbəb saç bitinin geniş yayılmasıdır. Rospotrebnadzor adlı qurumun Kursk bölgə təmsilçiliyindən verilən məlumata görə, insanların qrup halında cib telefonu ilə şəkil çəkdirmələri saç bitinin yayılmasına səbəb olur. Bu xəbərdarlıq sosial şəbəkədə lağlağı mövzusuna çevrilsə də, valideynlər buna ciddi önəm verib. Onlar selfie çəkdirərkən başını bir-birinə yaxınlaşdıran uşaqların bir-biri üçün bit təhlükəsi yaradacağını düşünür. Xatırladaq ki, qurumun keçmiş rəhbəri Gennadi Onişenko daha öncə qarğaların quş qripi yayan tüklü qurdlar olduğunu deyərək, onların öldürülməsini tövsiyə etmişdi.



## Şəkil çəkdirirlər deyə... körpüdəki dayanacağı ləğv etdilər

Novosibirsk vilayəti rəhbərliyi Buqrins körpüsündəki ictimai dayanacağı ləğv edib. Buna səbəb insanların sözügedən körpünün əsrarəngiz fonunda şəkil çəkdirmək istəyidir. Bu barədə lenta.ru saytı xəbər yayıb. Qərar şəhərin yol təhlükəsizliyi ilə bağlı keçirilən iclasında qəbul edilib. Nəticə olaraq ötən bazar günü körpünün üzərində burada dayanmağın qadağan olması barədə işarə yerləşdirilib. Burqin körpüsü Obdan Novosibirskə gedən yolda masştab etibarilə ən böyük körpü sayılır. O, şəhərin Kirov və Oktyabr rayonlarını birləşdirir. Amma körpü o qədər maraqlı görüntüyə sahibdir ki, ordan keçənlərin hamısı bu məkanda şəkil çəkdirir. Bu isə sözügedən məkanda yol qəzaları ehtimalını artırır.




**QOÇ** - Saat 14-16 aralığını nəzərə almasaq, bu təqvim xeyrinizə işləyəcək. Özünüzü çıxılmaz durumda hiss etməkdənsə, reallığa uyğun addım atın. Başqalarının şəxsi həyatına müdaxilə etməyin.

**BUĞA** - Səbrli olmaq bir yerə qədərdir. Çünki həyatda elə məqamlar var ki, cəld reaksiya bildirməlisiniz. Saat 12-dən 16-ya qədər sizə belə bir taktika lazım olacaq. Həmsöhbətiniz olan hər adama etbar etməyin.

**ƏKİZLƏR** - Daha çox işgüzar bir təqvim kimi yadınızda qalacaq. Ötən həftədən yığılıb qalmış iş problemlərini yenidən hərəkətə gətirmək və sürətlə başa çatdırmaq lazımdır. Axşama doğru yolda diqqətli olun.

**XƏRÇƏNG** - Sənədləşdirmə işlərində bir qədər diqqətli olun, xüsusən də nahara qədər. Bunu bacarsanız, gün ərzində hər hansı probleminiz olmayacaq. Daxili sabitliyinizi qorumaq üçün yaxşı həmsöhbət seçin.

**ŞİR** - Qətiyyətli olmaq indi başlıca vəzifənizə çevrilməlidir. Əks təqdirdə, sizə qarşı olanların sayı arta bilər. Günortadan sonra nəzərdə tutduğunuz planların həllinə doğru sürətli gedişiniz olacaq.

**QIZ** - Təxminən saat 12-yə daxili sabitliyinizi qoruyun, ələlxüsus da fəaliyyət müstəvisində diqqətli olun. Bunun öhdəsindən gəlsəniz, günün sonrakı saatlarında ümumi gedişatdan razı qalacaqsınız.

**TƏRƏZİ** - Maliyyə baxımından uğurlu gün hesab etmək olar. Bu səbəbdən pulla bağlı bütün planlarınızı hərəkətə gətirin. Ulduzların düzümü hazırkı mərtəbəyə gəlməyinizdə rolu olanları unutmamağı tövsiyə edir.

**ƏQRƏB** - Qarşınızda neytral bir gün durur. İştirakçısı olduğunuz proseslərdə qeyri-adi bir olay baş verməyəcək. Amma daha çox müsbət yönümlü mənzərə yaratmaq üçün səylərinizi artırmalısınız.

**OXATAN** - Himayənizdə olan kiçikyaşlıları diqqətdə saxlayın. Çünki kosmik fon bu gün uşaqların zədələnə biləcəyini bildirir və yalnız siz bunu əvvəlcədən duya bilərsiniz. Nahardan sonra büdcənizdə artım gözlənilir.

**OĞLAQ** - İş münasibətlərini şəxsi münasibətlərlə qarışdırmayın. Bu, nəzərdə tutduğunuz hədəflərə çatmaqda sizə mane ola bilər. Ağıllı və təcrübəli adamların məsləhətlərindən yararlanın. Bu gün səfərə çıxmayın.

**SUTÖKƏN** - Ağlınız kəsməyən hər hansı işə qol qoymayın. Son zamanlar təcrübəniz olmayan sahələrə girişməyini sizi pərt edə bilər. Günün ikinci yarısını sevgiyə, qohumluq münasibətlərinə həsr edin.

**BALIQLAR** - Günün ümumi mənzərəsi sizi qane etməyə bilər. Amma bütün daxili gücünüzü səfərbər etməklə bu gərginlikdən qurtula bilərsiniz. Xüsusən də nahardan sonra zamanı xeyrinizə dəyişmək imkanınız olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Oyun xəstələri üçün klinika



Amsterdamda qurulan Smith Jones klinikasında oyun xəstələrini bu bəladan qurtarmaq üçün öncə ciddi müşahidə edirlər. Məlum olur ki, alkoqolik və narkotiklərdən fərqli olaraq, onları müşahidə etmək, nəzarət altında saxlamaq daha asandır. Yəni yeməyini, suyunu ver, özünə toxunma, söz soruşma... saatlarla oyun oynasın. Klinika həkimləri bu tip adamları qumarbazlarla da müqayisə edir. Hər oyuna "bu dəfə udacam" istəyi, əzmi ilə başlama onları saatlarla kompüterdən ayıra bilmir. 8 yaşındakı uşaqların belə müalicə olunduğu klinikada insanlar oyunu əvəz edəcək əyləncələrə cəlb edilir. Rəhbərlik bu cür adamları qrup halında gəzintiyə, kinoteatra aparır, mütaliəyə cəlb edir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600